RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 180 (9059) ÇƏRŞƏNBƏ, 24 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Bizə Zəfər yaraşır!

## Strateji tərəfdaşlıq münasibətləri möhkəmlənir



Avqustun 23-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti əsnasında iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın gələcək inkişafı və strateji tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi məsələləri müzakirə olunub.

Bu ilin iyun ayında ali səviyyəli görüşlərin yekunlarına əsasən əldə olunmuş razılaşmaların reallaşmasında nəzərəçarpacaq tərəqqi məmnunluqla qeyd edilib.

Avqustun əvvəlində Hökumətlərarası Birgə Komissiyanın növbəti iclasının, Özbəkistan, Azərbaycan və Türkiyənin xarici işlər, ticarət və nəqliyyat nazirlərinin birinci görüşünün səmərəli olduğu vurğulanıb.

Bildirilib ki, cari ildə qarşılıqlı əmtəə dövriyyəsi 70 faiz artıb, kənd təsərrüfatı, ipəkçilik və toxuculuq sənayesi, maşınqayırma, kimya və digər sahələrdə birgə kooperasiya layihələrinin həyata keçirilməsinə başlanılıb. Qeyd edilib ki, Özbəkistan-Azərbaycan İnvestisiya Fondunun tezliklə fəaliyyətə başlaması üzrə iş aparılır və mədəni-humanitar mübadilə genişlənir.

Dövlət başçıları praktiki qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsinə tərəfdar olduqlarını bildiriblər. Bu baxımdan cari ilin payızında regionların forumunu və iki ölkənin sənaye potensialı sərgisini keçirməyin vacibliyi qeyd edilib.

Telefon söhbəti zamanı regional gündəliyə dair fikir mübadiləsi də aparılıb. Qarşıdakı çoxtərəfli görüşlərin, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatının və Türk Dövlətləri Təşkilatının Səmərqənddə baş tutacaq zirvə görüşlərinin qrafiki və gündəliyi nəzərdən keçirilib.

Özbəkistan və Azərbaycan prezidentlərinin telefon söhbəti ənənəvi açıq, səmimi və dostluq şəraitində keçib.

***Prezidentin Mətbuat Xidməti***

## Ağalıda həyat qaynayır

### Kimisi əkin əkir, kimisi də həyətyanı sahələrdə təsərrüfatla məşğul olur

Bir il əvvəl bərpasına başlanılan Zəngilanın Ağalı kəndinin birinci mərhələsinin açılışı bu ilin may ayında baş tutdu. İyulun 19-da isə böyük Qayıdışın ilk mərhələsi başladı.

Bu, hələ 4 mərhələdə həyata keçiriləcək köçürülmənin bir hissəsi idi. Ağalıya ailələrin köçürülməsi mərhələli şəkildə davam edəcək. İyulun 19-25-də dörd köç karvanı yola salınıb ki, bununla da 41 ailə - 201 nəfər Ağalıya yerləşib.

### Yeni texnologiyalar əsasında salınan müasir kənddə rahat həyat

"Ağıllı" sistem üzərində qurulan kənd layihəsində müasir şəhərsalma standartları tətbiq edilib. Pilot olaraq Zəngilanda icra edilməsinə başlanılan layihə əsasında burada 200 evdən ibarət "ağıllı kənd" salınıb.

→ 3

## İlham Əliyevin V İslam Həmrəyliyi Oyunlarında nəticə əldə etmiş idmançılarla görüşü qalib Azərbaycan atletlərini daha böyük uğurlara ruhlandırdı

"Vətənə sevgi, öz peşəsinə sədaqət, yorulmaz fəaliyyət, hazırlıq lazımdır. Çünki hazırlıq olmadan heç bir nəticə olmur, nə siyasətdə, nə idmanda, nə həyatda. Siz artıq bir daha Azərbaycanın şöhrətini ucaltmısınız və necə ki, bu gün bayrağımız Qarabağda, Zəngəzurda dalğalanır, idman arenalarında da dalğalanır, əminəm ki, əbədi dalğalanacaq".

Türkiyədə keçirilən V İslam Həmrəyliyi Oyunlarında bayrağımızı yüksək zirvələrdə dalğalandıran atletlərimizlə keçirilən görüşdə Prezident İlham Əliyev qalib Azərbaycanın qalib idmançılarının uğurlarını çox yüksək dəyərləndirdi və Milli Olimpiya Komitəsinin rəhbəri kimi onların qarşısında yeni vəzifələr müəyyənləşdirdi.

Dövlət başçısı və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə keçirilən bu görüşdə İlham Əliyevin səsləndirdiyi fikirlər Azərbaycan idmançılarına stimul verməklə yanaşı, onları növbəti beynəlxalq yarışlara, xüsusən də Yay Olimpiya Oyunlarına daha məsuliyyətlə hazırlaşmağa köklədi.

### Atletlərimizin uğurları Azərbaycanın idman ölkəsi olduğunu bir daha təsdiqlədi

Azərbaycan idmançıları İlham Əliyevin söylədiyi kimi, V İslam Həmrəyliyi Oyunlarına qalib ölkənin atletləri kimi qatılmışdılar və nəticə də göstərdi ki, onlar ölkəmizi şərəflə, ləyaqətlə təmsil etdilər.

→ 3

## Azərbaycanın mütərəqqi və demokratik Konstitusiyası var

Konstitusiya hər bir sivil ölkənin Əsas Qanunu kimi ən ali hüquqi qüvvəyə malikdir. Bu ali sənəd dövlətin quruluşunun və təməlinin prinsiplərini, cəmiyyətin siyasi, hüquqi və iqtisadi əsaslarını təsbit etməklə, həm də vətəndaş hüquqlarını özündə əks etdirir, ölkənin inkişaf prioritetlərini müəyyən edir.

Dövlətçiliyin və dövlət siyasətinin ümumi istiqamətlərini təsbit edən Konstitusiya özünün ali hüquqi xüsusiyyətləri ilə hər bir xalqın həyatında xüsusi rola malikdir.

### Müstəqillik tariximizin mühüm siyasi hadisəsi

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra qarşıda duran ilk vəzifələrdən biri dövrün, siyasi-iqtisadi quruluşun tələblərinə uyğun yeni Konstitusiyanın hazırlanması və qəbulu idi.

→ 4

## Ermənistan müharibə cinayətlərinə görə cavab verməli olacaq

### Vandallar mədəni irsimizi məhv etmək üçün hər cür ləyaqətsizliyə əl atıblar

Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətində mədəni irsimizin məhv edilməsi xüsusi yer tutub. Bunun nəticəsidir ki, Azərbaycanın tarixi-mədəni sərvətlərinə böyük ziyan dəyib.

İşğaldan azad edilən ərazilərimizdə minlərlə maddi-mədəni, dini abidələr olub ki, onların da əksəriyyəti erməni vandalizminə məruz qalıb, müqəddəs and yerlərimiz düşmən tərəfindən təhqir olunub, dağıdılıb. Prezident İlham Əliyev dövlət başçılarının iştirakı ilə keçirilən beynəlxalq tədbirlərdə dəfələrlə bildirib ki, Ermənistan müsəlman ölkələri üçün dost ola bilməz, məscidləri bu günə qoyan ölkə bizləri sevə bilməz. Dini ibadət yerlərinin dağıdılması və donuzların saxlanıldığı yer kimi istifadə olunması erməni vandalizminin bariz nümunəsidir.

→ 6

## Xəzər ölkələrimizi ayıran dənizdən xalqlarımızı birləşdirən əməkdaşlıq körpüsünə çevrilir

Postsovet məkanında yeni güclər və dövlətlər arasında yeni iqtisadi münasibətlər və fərqli diplomatik əlaqələr formalaşır.

Bu zaman isə ən maraqlısı odur ki, indi dünyanın məşhur politoloqları keçmiş Sovet İttifaqından ayrılıb formalaşan dövlətlərdə əvvəlki liderlərdən ciddi dərəcədə fərqlənən yeni düşüncə tərzinə və təfəkkürə, daha cəsarətli siyasi və diplomatik gedişlərə malik unikal siyasi liderlərin yetişdiyini qeyd edirlər.

Bu baxımdan həm Azərbaycan Prezidenti İlham Əliyev, həm də Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev keçmiş ittifaqın şinelindən çıxan siyasi xadimlərə qətiyyən bənzəmirlər. Onların hər ikisi qürur doğuran yeni təfəkkürlü siyasi xadimlərdir.

→ 4



## Mavi Xəzərin sahilindəki möcüzə

→ 6

## Bakı şəhərinin Nəsimi rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Nəsimi rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 2,2 milyon (iki milyon iki yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899; 2021, № 5, maddə 443, № 6 (I kitab), maddə 584, № 9, maddə 984; 2022, № 1, maddə 21, № 3, maddə 224, № 5, maddə 468) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 17-1-ci, 17-2-ci, 21-1 - 21-6-cı hissələr əlavə edilsin:

"17-1. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi

17-2. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi";

"21-1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri"

21-2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi"

21-3. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi"

21-4. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO"

21-5. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi"

21-6. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "İqtisadi Elmi - Tədqiqat İnstitutu";

1.2. 35-ci hissənin sonundan nöqtə işarəsi çıxarılsın və həmin siyahıya aşağıdakı məzmunda 36-39-cu hissələr əlavə edilsin:

"36. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

37. Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi

38. Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi

39. Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin tabeliyində "Hüquq və İnsan Haqları İnstitutu.".

2. Bu Fərman 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251) ilə təsdiq edilmiş "Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissənin adında "fəaliyyət" sözü "fəaliyyətinin" sözü ilə əvəz edilsin.

2. 2.1-ci bənd ləğv edilsin.

3. 3.1.1-ci yarımbənddə "qanunvericilik aktlarının" sözləri "normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin.

4. 3.1.23-cü yarımbənd, 4.3-cü və 4.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"3.1.23. müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;";

"4.3. İdarə Heyəti Agentliyə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədri və onun müavini daxil olmaqla 3 (üç) üzvdən ibarətdir.

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini İdarə Heyəti sədrinin müavini icra edir.".

5. 4.5.5-ci yarımbənd ləğv edilsin.

6. 4.5.7-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.5.7. Agentliyin strukturunun, əməyin ödənişi fondunun, işçilərin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin təsdiq edilməsi, o cümlədən Agentliyin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sisteminin müəyyənləşdirilməsi məqsədilə Nazirliyə təkliflər vermək;".

7. 4.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"4.6. İdarə Heyətinin sədri ayda bir dəfədən az olmayaraq İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.".

8. Aşağıdakı məzmunda 4.6-1 - 4.6-3-cü bəndlər əlavə edilsin:

"4.6-1. İdarə Heyətinin üzvlərinə və İdarə Heyətinin iclaslarına dəvət olunan şəxslərə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.6-2. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ daxil edilərsə, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.6-3. İclasın gündəliyinə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.".

9. 4.7.7-ci yarımbənddə "Agentliyin" sözü "Özünün və Agentliyin struktur bölmələrinin" sözləri ilə əvəz edilsin.

10. 4.7.8-ci yarımbənddə "əməkhaqqı fondu" sözləri "əməyin ödənişi fondu" sözləri ilə, "ştat cədvəlini, habelə" sözləri "strukturunu, ştat cədvəlini və" sözləri ilə əvəz edilsin.

11. 4.7.9-cu yarımbənddə "əməkhaqqı fondu" sözləri "əməyin ödənişi fondu" sözləri ilə əvəz edilsin.

12. Aşağıdakı məzmunda 5.4-1-ci bənd əlavə edilsin:

"5.4-1. Agentliyin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Nazirliyin qərarı ilə dövlət büdcəsinə köçürülür.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 avqust 2022-ci il*

## "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə Özbəkistan Respublikasının "Özarxiv" Agentliyi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il iyunun 20-də Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə Özbəkistan Respublikasının "Özarxiv" Agentliyi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Özbəkistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 avqust 2022-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında sənaye sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il iyunun 21-də Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında sənaye sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Özbəkistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 avqust 2022-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il iyunun 21-də Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Müdafiə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Özbəkistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 avqust 2022-ci il*




## Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb

Nazirlər Kabineti Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə qərar verib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı qərarı Baş nazir Əli Əsədov imzalayıb.

Qərara əsasən koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti bu il noyabrın 1-i saat 06:00-dək uzadılıb.

## "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında regionlararası əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il iyunun 21-də Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında regionlararası əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Özbəkistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 avqust 2022-ci il*

## "Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 mart tarixli 597 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 mart tarixli 597 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 437, № 10, maddə 1581; 2021, № 12, maddə 1405; 2022, № 4, maddə 306) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Fərmanla təsdiq edilmiş "Ərazi Tikinti-Planlaşdırma Mərkəzinin Nizamnaməsi"nin 3.1.16-cı və 3.1.22-ci yarımbəndlərində "şəhərinin" sözü "şəhərinin və" sözləri ilə əvəz edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş "Ərazi Tikinti-Planlaşdırma Mərkəzinin göstərdiyi ödənişli xidmətlərin Siyahısı"nın 3-cü və 9-cu hissələrində "inzibati ərazisində" sözləri "və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazilərində" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 avqust 2022-ci il*

## Nazirlər Kabinetinin bir neçə qərarında dəyişiklik edilib

### Reaktiv mühərriklər üçün yanacağın idxalı bu ilin sonunadək gömrük rüsumundan azad olunub

AZƏRTAC Nazirlər Kabinetinin saytına istinadla xəbər verir ki, Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022 il 23 avqust tarixli 323 nömrəli qərarı ilə ölkəyə idxal edilən reaktiv mühərriklər üçün TC-1 markalı yanacaq, həmçinin reaktiv mühərriklər üçün digər yanacağın aksiz dərəcəsi 2022-ci ilin sonunadək hər tonuna görə 1 manat təsbit edilib.

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 23 avqust tarixli 324 nömrəli qərarı ilə ölkəyə idxal edilən reaktiv mühərriklər üçün TC-1 markalı yanacaq, həmçinin reaktiv mühərriklər üçün digər yanacağın idxal gömrük rüsumu 2022-ci ilin sonunadək 0 faiz təsbit edilib.

## "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il iyunun 21-də Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Özbəkistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 avqust 2022-ci il*

## "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 yanvar tarixli 476 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 yanvar tarixli 476 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 66) 7-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 7.1.1-ci yarımbəndə "müəyyən edilməsi" sözlərindən sonra ", onların dəyişdirilməsi" sözləri əlavə edilsin.

2. 7.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"7.1.2. Agentliyin idarəetmə orqanlarının yaradılması;".

3. Aşağıdakı məzmunda 7.1.3-cü yarımbənd əlavə edilsin:

"7.1.3. Agentliyin yenidən təşkili və ləğv edilməsi;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 avqust 2022-ci il*



# Bizə Zəfər yaraşır!

## İlham Əliyevin V İslam Həmrəyliyi Oyunlarında nəticə əldə etmiş idmançılarla görüşü qalib Azərbaycan atletlərini daha böyük uğurlara ruhlandırdı

*Əvvəli 1-ci səh.*

Azərbaycan bu oyunlarda ən böyük nümayəndə heyəti ilə - 282 idmançıdan əlavə, məşqçi, texniki heyət, media və rəsmi nümayəndələr ilə birlikdə 484 nəfərlə təmsil olundu. Oyunlardan öncə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın avqustun 9-da Konyada Atletlər kəndində idmançılarla görüşləri onları qələbələrə ruhlandırdı və nəticədə atletlərimiz 99 medal qazandılar. 19 idman növündə qazanılan medallardan 29-u qızıl, 36-sı gümüş, 34-ü bürünc olmaqla, Azərbaycan 55 ölkə arasında 4-cü yerdə qərarlaşdı.

Bakıda idmançılarla görüşdə İlham Əliyev atletlərimizin uğurlarını dəyərləndirərkən vurğuladı ki, xalqımızın hər zaman fəxr etdiyi idmançılarımız bütün dünyaya bir daha Azərbaycanın idman ölkəsi olduğunu göstərdilər.

V İslam Həmrəyliyi Oyunlarında dördüncü yerə layiq görülməyi çox böyük nailiyyət adlandıran Prezident dedi ki, bu qələbə əvvəlki uğurların təsadüfi xarakter daşımadığını göstərdi. Onu da vurğulamalıyıq ki, idmançılarımızın bu oyunlarda 19 idman növündə medallar qazanması uğurlu nəticə olmaqla yanaşı, son illərdə idmanın bir çox növlərinin ölkəmizdə inkişaf etdiyini bir daha təsdiqləyir.

### Yüksəksəviyyəli təşkilatçılıq, qardaş dəstəyi

Konyada tarixə çevrilən V İslam Həmrəyliyi Oyunlarının təşkilatçılıq səviyyəsini də qiymətləndirən İlham Əliyev qardaş ölkəyə həm yarışlarda birinci yer tutduğu, həm də yüksəksəviyyəli təşkilatçılığa görə təşəkkürünü bildirdi:

"Bu oyunlar qardaş ölkədə keçirilmişdir və əlbəttə ki, bizim idmançılar özlərini çox rahat hiss edirdilər. Hər bir idmançı özünü öz evindəki kimi hiss edirdi. Biz açılış mərasimində onun da şahidi olduq ki, Azərbaycan komandası stadiona daxil olanda bizim türk qardaşlarımız necə səmimi və hərarətlə idmançılarımızı qarşılamışlar. Elə bil ki, bizim komandamız Bakıda stadiona çıxıb. Bu, doğrudan da, bir daha bizim xalqlarımızın nə qədər bir-birinə bağlı olduğunu göstərir. Onu göstərir ki, təkcə prezidentlər bir-birinə qardaş deyil, eyni zamanda xalqlarımız, idmançılarımız qardaşdırlar. Orada - stadionda on minlərlə tamaşaçı Azərbaycan komandasını öz doğma komandası kimi qarşılamışdır".

Həqiqətən də, oyunların açılış mərasimində çox maraqlı məqam yaşandı. Azərbaycan Prezidentinin də iştirak etdiyi mərasimdə ölkəmizin nümayəndə heyəti stadiondan keçərkən, yəni üçrəngli bayrağımız açılarkən 42 minlik insanın idmançılarımızı coşqu ilə qarşılaması, Türkiyənin qalib Azərbaycana qardaş alqışı oldu. Bu hisslər idmançılarımıza unudulmaz xoş duyğular yaşatdı. Xatırladaq ki, 2017-ci ildə Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimində də eyni hisslər yaşanmışdı. Qardaş Türkiyənin nümayəndə heyəti Olimpiya stadionuna daxil olarkən 62 min tamaşaçı onları ayaqda alqışlamışdı.

Bütün bunlar iki qardaş ölkənin sarsılmaz birliyinin bariz təcəssümüdür. Azərbaycan və Türkiyə hər zaman birlikdədir və bu bağlılığı kimsə sarsıda bilməz.

### MOK prezidentinin tapşırıq və tövsiyələri

İlham Əliyev bildirdi ki, oyunlar artıq tarixdir. İdmançılarımız bu medalları qürur hissi ilə daşıyacaqlar. Ancaq indi gələcəyə baxmağın zamanıdır və bundan sonra da Azərbaycan idmanının inkişafı ilə bağlı hansısa addımlar atılmalıdır.

MOK prezidenti son vaxtlarda müxtəlif federasiyalarda baş verən dəyişikliklərə də toxunaraq bəzi məsələlərə aydınlıq gətirdi. Qeyd etdi ki, bu islahatlar qaçılmaz idi. Səbəb isə o idi ki, bəzi federasiyalarda durğunluq hökm sürürdü, nəticələr əldə edilmirdi, hətta bəzi idmançılarımız beynəlxalq yarışlardan məhrum edilirdilər. Müvafiq beynəlxalq idman qurumları bəzi hallarda əsaslı, bəzi hallarda isə əsassız olaraq onları, bütövlükdə federasiyaları cəzalandırırdılar. Bu da onu göstərdi ki, artıq yeni təkana ehtiyac var.

Prezident bu yaxınlarda federasiyalarda və eyni zamanda Gənclər və İdman Nazirliyində baş vermiş dəyişikliklərin həm idmançılar, həm də idman ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı. Çünki nəticələr göz qabağındadır. İdmana cavabdehlik daşıyan qurumlar idmançılarla daim bir yerdə olmalı, hər bir idmançını tanımalı, onun problemləri ilə məşğul olmalıdırlar. İndi isə edilmiş dəyişikliklərin nəticəsində qazanılan uğurlar bir daha təsdiq edir ki, bu islahatlar labüd idi: "Əsas odur ki, Azərbaycanın idman ictimaiyyəti belə mütəşəkkil qüvvə kimi bir nöqtəyə vursun. Hər zaman bu, diqqət mərkəzində olan məsələ idi ki, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, klublar, idman cəmiyyətləri bir nöqtəyə vursunlar, komanda şəklində fəaliyyət göstərsinlər və birlik olsun. Çünki mən 1997-ci ildən Milli Olimpiya Komitəsinin prezidentiyəm və bilirəm hansı ölkələrdə hansı proseslər baş verir. Bir çox hallarda idmana cavabdehlik daşıyan qurumlar arasında birlik yoxdur, əksinə, ziddiyyətlər var. Bizdə isə bu birlik var və bu, hesab edirəm ki, uğurlarımızın əsas şərtlərindən biridir".

İlham Əliyev bir daha vurğuladı ki, bu gün Azərbaycanda idmana və xüsusilə idmançılara olan münasibət gəncləri, uşaqları idman bölmələrinə gətirir və bu proses daha da sürətlənəcək. Çünki idmanın inkişafı üçün dövlət hər cür şərait yaradıb, yeganə şərt odur ki, idman bölmələrinə gələn uşaqları seçib onları yetişdirmək lazımdır.

Təbii ki, istənilən yarışdan sonra istirahət dövrü olmalıdır. İdmançılar bir qədər dincəldikdən sonra növbəti yarışlara köklənməlidirlər. Prezident bildirdi ki, amma bu, çox çəkməməlidir, çünki qarşıda Yay Olimpiya Oyunları var. Ona görə yaxın aylarda artıq hazırlığa başlamaq lazımdır: "Hesab edirəm ki, indi bütün idman qurumlarının əsas məqsədi Yay Olimpiya Oyunlarına hazırlıq olmalıdır. Mən əminəm ki, bütün idman qurumları burada da öz vəzifə borclarını bilirlər, yaxşı dərk edirlər və beləliklə, Yay Olimpiya Oyunlarında biz ölkəmizi ləyaqətlə təmsil edəcəyik".

### Prezident ənənəsi - uğur qazanmış idmançılar, məşqçilər, digər mütəxəssislər mükafatlandırıldı

İlham Əliyev hər zaman olduğu kimi, bu görüşdə də qalibləri, medal qazanmayan idmançıları da yeni qələbələrə kökləyərək onlara mənəvi dəstək verdi. Bildirdi ki, Vətənə sevgi, öz peşəsinə sədaqət, yorulmaz fəaliyyət, hazırlıq lazımdır. Çünki hazırlıq olmadan nə siyasətdə, nə idmanda, nə həyatda heç bir nəticə olmur.

Azərbaycanda idmana dövlət dəstəyi, idmançılara daim göstərilən qayğı onu deməyə əsas verir ki, bundan sonra da dünyanın idman arenalarında bayrağımız yüksək zirvələrdə dalğalanacaq və respublikamızın idman ölkəsi kimi nüfuzu yüksələcək.

Onu da qeyd edək ki, bütün mötəbər yarışlardan sonra dövlət başçısının idmançılarımızı mükafatlandırması ənənəsinin davamı olaraq V İslam Həmrəyliyi Oyunlarında ən yüksək nəticələr göstərmiş atletlərimizin, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin uğurları dəyərləndirildi. Prezident avqustun 22-də imzaladığı sərəncamla 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Gənclər və İdman Nazirliyinə 10 milyon manat vəsait ayırdı.

Gənclər və İdman Nazirliyi idmançılar arasında rəqabətin səviyyəsi, yarışların çətinlik dərəcəsi, ən yüksək nəticələrə görə medalların sayı, fərdi və ya komanda yarışlarında iştirakı nəzərə alınmaqla idmançıların, onların məşqçiləri və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması üçün nəzərdə tutulmuş vəsaitin bölgüsünə, habelə idmançılara hissə-hissə ödənilməsinə dair qaydanı on beş gün müddətində hazırlayıb təsdiq edəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Ağalıda həyat qaynayır

## Kimisi əkin əkir, kimisi də həyətyanı sahələrdə təsərrüfatla məşğul olur



*Əvvəli 1-ci səh.*

Növbəti mərhələdə kənddə daha 150 mənzilin inşası nəzərdə tutulur. Bu kənddə uşaq bağçası, məktəb, tibb məntəqəsi, məşğulluq, digər bütün xidmətlər üzrə mərkəzlər fəaliyyət göstərir.

"Ağıllı şəhər" və "ağıllı kənd" layihəsinin əsas prioritetləri şəhər və kəndlərdə göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılmasının, onların göstərilməsində informasiya texnologiyalarının tətbiqinin, həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsidir.

Müasir telekommunikasiya, sensor, digər rəqəmsal və süni intellekt texnologiyalarının, həmçinin innovasiya və biliklərin istifadə edilməsi sosial-iqtisadi münasibətləri daha məhsuldar və səmərəli edir, iqtisadiyyatın ümumi dəyər zəncirində yeni gəlir imkanları yaradır. Qeyd edilən texnologiyaların bir-birilə inteqrasiya olunmuş formada istifadəsi ilə rəqəmsal məlumatların formalaşdırılması, yığılması, saxlanılması, işlənilməsi və analitik təhlillər əsasında qərarvermə və idarəetmənin keyfiyyətinin yüksəldilməsi səmərəli, eləcə də keyfiyyətli xidmətlərin göstərilməsi üçün geniş imkanlar açır.

Ağalıda sakinlərin rahatlığı üçün hər cür şərait yaradılıb. Burada enerjiyə olan tələbat alternativ enerji mənbələri hesabına əldə olunur. Kənddə DOST Agentliyinin "Şərqi Zəngəzur və Qarabağ" proqramı çərçivəsində "Smart DOST" xidmət məntəqəsi fəaliyyət göstərir. Qəsəbədə "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət", həmçinin Kiçik və Orta Biznesin İnkişafı mərkəzləri təsis olunub.

Ağalıya qayıdış kənd sakinləri ilə yanaşı, xalqımızın sevincinə səbəb oldu. 30 il sonra işğaldan azad olunmuş, ermənilər tərəfindən xarabaya çevrilmiş, qısa zamanda isə müasir standartlara cavab verərək "ağıllı kənd" konsepsiyası əsasında tikilən, bərpa edilən Ağalı öz sakinlərinə qovuşub.

Öz doğma torpaqlarına qayıdanların sevincinin həddi-hüdudu yox idi. Onlar göz yaşları içində öz yurdlarına, evlərinə qayıdırdılar. Amma bu, təbii olaraq xoşbəxtlikdən, sevincdən axan göz yaşları idi. Kəndə köçən ailələr orada yaradılan şəraitdən, infrastrukturdan məmnun qaldıqlarını və doğma kəndlərinə qayıtmaqdan xoşbəxt olduqlarını bildirirlər. Hazırda onlar həyətyanı sahələrində təsərrüfatla məşğul olurlar. Ağalı əhalisinin məşğulluğunun təmin olunması üçün isə işlər davam etdirilir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Zəngilan rayonunun Ağalı kənd sakinlərinin sosial-iqtisadi, təhsil, demoqrafik vəziyyəti, gəlirgətirən fəaliyyət, özünüməşğulluq və məşğulluq səviyyəsinin müəyyən edilməsi, ehtiyaclarının qiymətləndirilməsi və mərhələli qayıdışla bağlı fikirlərinin öyrənilməsi məqsədilə sorğular keçirir. Sorğulara 16-63 yaş aralığında olan şəxslər cəlb olunublar.

Dövlət Komitəsinin Birləşmiş Millətlər Təşkilatının (BMT) Qaçqınlar üzrə Ali Komissarlığı (QAK) ilə birgə pilot metodologiyalarla hazırladığı sorğular, üzbəüz müsahibələr, masa araşdırmaları və fokus-qrup görüşləri Ağalı kənd əhalisinin sıx məskunlaşdığı Bakı, Sumqayıt şəhərlərində, Abşeron və Beyləqan rayonlarında aparılır.

Ümumilikdə "ağıllı kənd" konsepsiyası əsasında salınan Ağalı kəndinə daha 727 nəfər sakinin köçürülməsi nəzərdə tutulur. Həmin sakinlərdən əmək qabiliyyətli 492 nəfərin ehtiyaclarının qiymətləndirilməsi və müvafiq olaraq, onların məşğulluğunun səmərəli təmin edilməsi üçün müvafiq sorğu-anketlər keçirilir. Yekun mərhələdə sorğuların nəticələri təhlil ediləcək, əmək qabiliyyətli hər bir məcburi köçkünün bilik və bacarıqlarının təkmilləşdirilməsi, uyğun məşğulluq fəaliyyəti ilə təmin olunması üçün aidiyyəti qurumlarla birgə əmək yarmarkaları, işəgötürənlərlə görüşlər və müvafiq digər optimal tədbirlər həyata keçiriləcək. Sorğuların avqust ayı ərzində yekunlaşdırılması nəzərdə tutulur.

### Bu torpaqlarda yaradıb, ənənəmizi yaşatmalıyıq

İyulun 19-da Bakıdan ilk köç karvanı ilə daimi məskunlaşmaq üçün kəndə köçənlərdən biri də Mirzəyevlər ailəsidir. Onlar ailəlikcə çox xoşbəxt və sevinclidirlər. Bütün bunları yaşadıqlarına, hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə, torpaqlarımızı işğaldan azad edən ordumuza minnətdardırlar.

Minə Mirzəyeva deyir ki, iyulun 19-dan kəndə köçmüş olsalar da, hələ də hər səhər durub ətrafa baxmaqdan doymur: "Şükürlər olsun bu günə ki, doğma torpaqlarımıza qovuşduq. Çox sevinirik. Övladlarım, nəvələrim də çox sevinirlər. Vətən müharibəsindən sonra qısa zamanda yurdumuza, evimizə qovuşduq".

Minə xanım keçmiş Ağalı ilə indiki Ağalı arasında fərq olduğunu bildirir. O, zamanla buranı cənnətməkana çevirəcəklərini deyir: "Əvvəllər hər yer yaşıllıq idi, meyvə ağacları ilə əhatə olunmuşdu. İndi elə deyil. O ağacları yenə əkəcəyik, bir neçə ilə buranı yaşıllığa çevirəcəyik".

Hazırda şəraitin yaxşı, evlərin isə çox rahat olduğunu bildirən M.Mirzəyevanın sözlərinə görə, bundan sonra qurub-yaratmaq sakinlərin əlindədir: "Dədə-babalarımızdan bizə qalan bu torpağın sahibiyik. Bu torpaqlarda yaradıb, ənənəmizi yaşatmalıyıq".

### Kənd həyatı davam edir - əkmək, becərmək...

Ağalı sakini Həbib Nəbiyev isə qeyd edir ki, kənddən gözyaşları içində çıxıb, gözyaşları ilə də qayıdıblar. Fərqi isə indikinin sevinc gözyaşları olmasıdır: "Buranı görmək, Ağalıda yaşamaq böyük sevinc yaşadır. 30 illik həsrətdən sonra qayıtmışıq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin".

Həbib kişinin həyat yoldaşı Bahar Səmədova 1993-cü ildə sonuncu köçən kəndlərdən birinin Ağalı olduğunu və ilk qayıdışın da məhz Ağalıya olmasını xatırladaraq deyir ki, o vaxt vətənlərindən didərgin düşüblər, indi isə öz torpaqlarına yaşamağa gəliblər: "Hazırda əkib becəririk. Kənd həyatımıza davam edirik. Tərəvəz, göyərti əkmişik. Payızda isə kəndimizi yenidən yaşıllığa çevirmək üçün ağaclar əkəcəyik".

Bahar xanım bildirir ki, ailədə 4 nəfərdirlər. Hər axşam samovar qalayıb qonşularla stol ətrafına toplaşırlar: "Keçmişdən, xatirələrdən danışıb qəhərlənirik. Amma indi bunu sevinclə xatırlayırıq. Bir də görürük gecə yarısıdır. Saatın necə keçdiyini bilmirik. Çünki kənd həyatı, mehribanlıq insana vaxtın necə keçdiyini unutdurur. Gör, neçə illərin həsrətini danışırıq birlikdə. İnşallah digər rayonların sakinləri də tezliklə öz doğma yurdlarına qayıdarlar. Bizim kimi gözəl həyat yaşayarlar".

### Ağalı sakinlərinin məşğulluğu təmin olunur

İyulun 19-da Ağalıya köçən ailələrdən biri də Paşayevlər ailəsidir. Ailə başçısı Vəliəddin Paşayev deyir ki, kəndin təməli qoyulandan orada çalışır. Vəziyyətin yaxşı olduğunu deyən kənd sakini qeyd edir ki, ailədə 6 nəfərdirlər. Yol tikinti şirkətində sürücü kimi çalışan Vəliəddin Paşayevin oğlu isə Minatəmizləmə Agentliyində (ANAMA) sürücü işləyir. Onlar digər ailə üzvlərinin məşğulluğunun təmin olunması üçün müvafiq qurumlara müraciət ediblər.

Vəliəddin Paşayev bildirir ki, hazırda yay mövsümü olduğundan həyətyanı sahədə təsərrüfatla məşğul olmasalar da, payızda əkib becərəcək, yaşıllığı artıracaqlar. Ağalıda müxtəlif xidmətlərdən istifadənin rahat olduğunu deyən kənd sakini bildirir ki, bilmədikləri nəsə olduqda müvafiq qurumlara müraciət edirlər və lazımi kömək alırlar.

Enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən ödənilən kənddə evlərdə günəş panellərindən istifadə olunur: "Burada yeni həyata başlamışıq. Kənd isə müasir standartlar əsasında qurulub. Buna görə nəyəsə ehtiyac yarandıqda əlaqədar şəxslərə müraciət edirik, onlar da problemi həll edirlər".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Snayperlərimiz beynəlxalq müsabiqədə uğurla iştirak edirlər



İran İslam Respublikasının Yəzd şəhərində keçirilən "Snayper həddi" müsabiqəsində ikinci mərhələnin növbəti çalışmaları yerinə yetirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan snayperləri "Cütlər sıralaması" mərhələsinin "Şəhər əməliyyatı" və "Tənzimləmə" çalışmalarını müvəffəqiyyətlə yerinə yetiriblər.

Çalışmalar zamanı snayperlərimiz cütlük şəklində atəş mövqeyinin seçilməsi, müxtəlif məsafələrdə yerləşən hədəflərin aşkarlanaraq sərrast atəşlə məhv edilməsi tapşırıqlarını müvəffəqiyyətlə icra ediblər.



# Azərbaycanın mütərəqqi və demokratik Konstitusiyası var

## Zaman keçdikcə Əsas Qanunun təkmilləşməsi dövlətimizin inkişafına yüksək töhfə verir

*Əvvəli 1-ci səh.*

1991-ci il oktyabr ayının 18-də qəbul edilən "Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda ölkəmizin yeni Konstitusiyasının hazırlanması ilə bağlı müddəa öz əksini tapmışdı. Lakin 1993-cü ilə qədər Azərbaycanda hakimiyyətdə olan iqtidarlar bu barədə düşünmək belə istəməmişdilər.

Azərbaycanda yeni Konstitusiyanın qəbulu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mümkün oldu. 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək ümumxalq səsverməsi yolu ilə müstəqil dövlətimizin Konstitusiyasını qəbul etdi. Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən sayılır.

Tariximizə Heydər Əliyev Konstitusiyası kimi daxil olan Əsas Qanunun qəbulu cəmiyyət həyatında demokratik dəyişikliklərə böyük yol açdı, insan hüquq və azadlıqlarının həyata keçirilməsi üçün əlverişli şərait yaratdı. Eyni zamanda bütün sahələrin inkişafına təkan verdi, xalqın tarixi ənənələrinə, milli və mədəni dəyərlərinə uyğun olan, ölkədə müasir dünyəvi və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşması, siyasi və hüquq sistemlərində sabit özülün yaradılması işində mühüm addım oldu. Konstitusiyanın qəbulundan bir il sonra - Konstitusiya günü münasibətilə Azərbaycan xalqına təbrikində Ulu Öndər Heydər Əliyev demişdir: "Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir".

Bütövlükdə 1995-ci ildə Azərbaycanda demokratik Konstitusiyanın qəbul olunması təsadüfi hal olmayıb, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrinin və keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsi idi. Bu Konstitusiya ümumbəşəri dəyərlərə və mütərəqqi milli ənənələrə söykənərək dövlətimizin və cəmiyyətimizin inkişaf yollarını, xalqımızın iradəsini özündə əks etdirir.

### Obyektiv reallıqdan irəli gələn tarixi dəyişikliklər

Konstitusiya dövlətin ali hüquqi qüvvəyə malik qanunu olmaqla yanaşı, digər qanunlar kimi dəyişməz deyildir, o da daim inkişafda olmalıdır. Bu baxımdan bu sənədə müəyyən vaxtlarda dəyişikliklərin olunması, müasir tələblərə uyğunlaşdırılması bütün dövlətlər üçün səciyyəvi haldır. Çünki normativ-hüquqi aktlardan, qanunlardan daha üstün hüquqi qüvvəyə malik olan, cəmiyyətin hüquq sisteminin əsasını təşkil edən Konstitusiya xalqın və dövlətin inkişaf prioritetləri ilə yanaşı, cəmiyyətin zamanla uzlaşan inkişaf xüsusiyyətlərini, obyektiv sosial tələbata çevrilən yenilikləri özündə əks etdirməli, insan və vətəndaş hüquq və azadlıqlarına daha etibarlı təminat mexanizmləri formalaşdırmalıdır.

Ölkəmizdə indiyə kimi üç dəfə konstitusiya islahatı həyata keçirilib. Əsas Qanunumuza dəyişikliyin edilməsi ilə bağlı ilk dəfə referendumun keçirilməsindən bu gün 20 il ötür. İlk dəfə 2002-ci ildə Azərbaycanda konstitusion dəyişikliklərə yaranan ehtiyac bütün sahələrdə qabarıq nəzərəçarpan inkişafdan irəli gəlirdi. Azərbaycanın bütün sahələrdə dinamik inkişaf etməsi, dövlətin iqtisadi siyasətində sosialyönümlü məsələlərin prioritetə çevrilməsi, habelə insan hüquq və azadlıqlarının maksimum müdafiəsinə xidmət edən təkmil qanunvericilik bazasının formalaşması Konstitusiyaya zamanın tələbi ilə səsləşən bir sıra əlavə və dəyişikliklərin edilməsini zərurətə çevirmişdi. Bu baxımdan Ümummilli Lider Heydər Əliyevin "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında" 22 iyun 2002-ci il tarixli fərmanına əsasən 2002-ci il avqustun 24-də keçirilən referendumun da başlıca məqsədi Əsas Qanunda insan hüquq və azadlıqlarının sırasını genişləndirmək, ölkənin siyasi və hüquqi sistemini təkmilləşdirmək məqsədi daşıyırdı.

Referendumun nəticəsi kimi Konstitusiyaya obyektiv reallıqdan irəli gələn bir sıra mütərəqqi dəyişikliklər edildi. Bu dəyişikliklər Konstitusiyanın qəbul edildiyi 1995-ci ildən ötən dövrdə baş verən proseslərdən, hüquq və qanunvericilik sahəsində ortaya çıxmış yeniliklərdən, demokratik inkişafdan irəli gəlməklə, məhkəmə islahatlarının həyata keçirilməsinə, Milli Məclisin fəaliyyətinin, seçki sisteminin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsinə xidmət etdi.

### İnam və etimadın göstəricisi

Ulu Öndər Heydər Əliyevin layiqli siyasi davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində əldə edilən uğurlar, sosial-iqtisadi islahatların dərinləşməsi, vətəndaş cəmiyyəti institutlarının, qeyri-hökumət təşkilatlarının dövlət dəstəyi ilə əhatə olunması, Avroatlantik məkana inteqrasiya prosesinin yüksək dinamizmlə davam etdirilməsi, bütövlükdə respublikanın həyatında özünü qabarıq göstərən fundamental dəyişikliklər və pozitiv yeniliklər Azərbaycan Konstitusiyasında yenidən bir sıra əlavə və dəyişikliklərin edilməsini gündəmə gətirdi.

Sürətlə bir-birini əvəzləyən uğurlar, dinamik inkişaf Konstitusiyaya nəzər salmağı və daha da təkmilləşdirməyi zəruri etdi.

Bu məqsədlə 2009-cu il martın 18-də keçirilən referendum Azərbaycan xalqının demokratikləşmə və liberallaşmaya xidmət edən, insan hüquqlarının qorunmasında əlavə imkanlar açan konstitusiya islahatlarını dəstəklədiyini təsdiq etdi. Yeni əlavə və dəyişikliklər mahiyyətcə Konstitusiyanın daha da təkmilləşməsinə, bir sıra məsələlərin bu sənəddə daha dolğun ifadəsini tapmasına xidmət etməklə yanaşı, onun müddəalarının liberallığı, demokratik səciyyə daşıması ilə seçildi.

Respublikamızda sosial-iqtisadi inkişafa paralel şəkildə hüquqi və siyasi islahatların da genişləndirilməsinə təminat yaradan konstitusiya islahatı həm də xalqın hakimiyyətə olan inam və etimadının bariz təcəssümü kimi diqqəti çəkdi. Bütövlükdə isə referenduma çıxarılan məsələlərin xalq tərəfindən dəstəklənməsi göstərdi ki, ölkəmizin nailiyyətlərini gündəlik həyatında hiss edən, respublikanın əldə etdiyi inanılmaz nəticələrlə qürur duyan xalqımız daha təminatlı gələcəyə, yüksək maddi-sosial rifaha, davamlı demokratikləşməyə aparan mövcud siyasi kursa alternativ görmür.

### İlham Əliyevə ümumxalq dəstəyin növbəti təcəssümü

Respublikamızda növbəti konstitusiya islahatı 2016-cı ildə keçirilib. Həmin vaxt Əsas Qanuna təklif olunan dəyişikliklərin başlıca hədəfi dövlət idarəetmə sistemini daha da təkmilləşdirmək, mərkəzi icra hakimiyyətinin səmərəli fəaliyyətini təmin etmək, iqtisadi sahədə islahatlar kursuna uyğun yeni çevik və effektiv idarəetmə mexanizmi formalaşdırmaq idi.

Hələ o vaxt təhlillər göstərirdi ki, dəyişiklikləri zəruri edən səbəblər yaranıb. Belə ki, zamanın nəbzini tutmaq lazım idi. Son konstitusiya islahatlarından sonra respublikamızda vitse-prezident vəzifəsi təsis olundu. Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti bu institutun nə qədər səmərəli və effektiv olduğunu təsdiqlədi.

2016-cı il sentyabrın 26-da Konstitusiyaya təklif olunan dəyişikliklərlə bağlı keçirilən referendum bütün parametrləri ilə Azərbaycanın siyasi tarixinə növbəti demokratik siyasi hadisə kimi düşdü. Azərbaycan xalqı özünün tarixi və ən doğru addımını ataraq bir daha Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursa səs verdi. Referendumun nəticələri, yəni seçicilərin əksəriyyətinin səsvermədə iştirakı və onların təklif olunan əlavə və dəyişikliklərə müsbət münasibət bildirməsi isə Prezident İlham Əliyevə cəmiyyətimizdə olan böyük inamın növbəti təsdiqi oldu. Başqa cür ifadə etsək, Konstitusiyaya edilən dəyişiklikləri ölkə vətəndaşlarının müsbət dəyərləndirməsi növbəti dəfə İlham Əliyevə ümumxalq dəstəyin nümayişinə çevrildi. Bu, xalqımızın öz Prezidentinə və iqtidarına etimadını bir daha müəyyənləşdirən tarixi səsvermə idi.

Konstitusiyaya edilmiş hər bir əlavə və dəyişiklik respublikamızın hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yoluna, demokratik dəyərlərə sadiqliyini əyani şəkildə təcəssüm etdirib. Mütərrəqi müddəalarla daha da təkmilləşən Əsas Qanunumuz öz hüquqi funksiyası ilə dövlətimizin inkişafına layiqli töhfələr verir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Xəzər ölkələrimizi ayıran dənizdən xalqlarımızı birləşdirən əməkdaşlıq körpüsünə çevrilir

*Əvvəli 1-ci səh.*

Biz həm İlham Əliyevin, həm də Kasım-Jomart Tokayevin gərgin siyasi vəziyyətlərdə uğurlu və cəsarətli diplomatik gedişlərinin dəfələrlə şahidi olmuşuq.

Dünya ildırımsürəti ilə elə dəyişir ki, bəzən siyasi vektorların təsir gücünü və istiqamətini zamanında və düzgün təyin etmək asan olmur. Biz onun şahidiyik ki, müasir dünyada güc mərkəzləri həm yerlərini sürətlə dəyişir, həm də ən güclü dövlətlər belə gözlənilmədən mövqelərini itirərək iqtisadi problemlərin həlli qarşısında açız qalırlar. Rusiya-Ukrayna qarşıdurmasının qlobal ərzaq böhranına səbəb olması və nəticədə ən güclü dövlətlərin qiymət artımı məngənəsində saxılmaları buna sübutdur.

Belə mürəkkəb şəraitdə Azərbaycan və Qazaxıstan həm daxildə sabitliyi və xaricdə nüfuzlarını qoruya bilir, beləcə sərbəst şəkildə daxili və xarici siyasətlərini idarə edirlər. Burada hər iki dövlət başçısının bənzər cəhətlərini müşahidə etmək mümkündür. Onların hər ikisi bir neçə dildə sərbəst danışır, yüksək intellektə malikdirlər və istənilən çətin vəziyyətdən uduşla çıxmağı bacarırlar. Günümüzün reallığı ondan ibarətdir ki, İlham Əliyev Qafqazda, Kasım-Jomart Tokayev isə Orta Asiyada yeni güc mərkəzlərini formalaşdıran unukal dövlət xadımləridir. Onların hər ikisi qonşu ölkələrlə əlaqələri qoruyur, eyni zamanda yeni əməkdaşlıq üfüqlərini genişləndirirlər.

İki dövlət başçısının Bakı görüşü ərəfəsində hər şeyi gözlərimlə görmək üçün bir jurnalist kimi qərar verdim ki, Azərbaycana yola düşüm və həm tələbəlik dostlarımı axtarıb tapım, həm də ölkənizlə daha yaxından tanış olum. Xəzəri bərə ilə üzüb keçmək üçün Aktauya gəldik. Mehmanxanada televizora baxanda Avropa xəbərləri proqramında Azərbaycan Prezidenti İlham Əliyevlə Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayeni yan-yana dayanan gördüm. Diktor deyirdi ki, Avropa Azərbaycanı öz strateji tərəfdaşı elan edir. Sevincimin hədd-hüdudu yox idi.

Xanım Ursula fon der Lyayen mətbuata bəyanatında da Avropa İttifaqının Azərbaycanla birgə çalışacağını, Mərkəzi Asiya və onun hüdudlarından kənarda da əlaqələr qurmaq arzusunda olduğunu bildirirdi: "Biz mühüm Trans-Xəzər əlaqələrinə dair ideya və müzakirələri böyük maraqla izləyirik və müzakirələrin dərinləşdirilməsinə töhfə verəcəyik".

Bu gün Avropa İttifaqının Azərbaycana daha dərindən bağlanmaq meyilləri Qazaxıstan üçün də xüsusi əhəmiyyət kəsb edir. Tokayev Bakıya uçmazdan öncə Trans-Xəzər logistikasının zəruriliyindən danışmış, Azərbaycanın Qazaxıstan üçün Avropaya pən-



cərə olduğunu elan etmişdir. Bu yol Aktaudan Bakıya və oradan Batumiyə, sonra isə Avropaya çıxışdır. Belə ki, Batumidə Qazaxıstanın limanı var. Bu yollar necə qurulacaq? Artıq Aktauda ciddi işlər gedir, Ələt limanı dünyanın ən müasir tələblərinə cavab verir. Biz Xəzər dənizini üzüb keçəndə bu işlərin necə genişlənməsinin şahidi olduq. Azərbaycan gəmi inşasında yeni təkliflər verir, bərə reyslərin sayının artırılmasının zərurəti yaranır.

Əgər əsrlərboyu Xəzər dənizi bizi və xalqlarımızı ayırmışdısa, indi bu dəniz hamımızı birləşdirən möhtəşəm körpüyə çevrilir. Bu körpü ilk növbədə Qazaxıstan üçün daha böyük əhəmiyyət kəsb edir, biz yeni kommunikasiyaların və qovşaqların yaranmasında daha maraqlıyıq. Qazaxıstan Avropa bazarına çıxış, məhsullarımızın ixrac imkanlarının artması əlverişli amillərdir.

Dünya xəritəsində kommunikasiyaların yeri və istiqamətləri dəyişdikcə Azərbaycanın statusu daha böyük əhəmiyyət kəsb edir. Daha əlverişli nəqliyyat dəhlizinə çıxış əldə etməklə yanaşı, biz özümüzə həm də daha etibarlı tərəfdaş qazanırıq. Bakının gücü ondadır ki, bütün dünyanın marağını cəlb edən mükəmməl nəqliyyat qovşaqları yarada bilmişdir.

Qazaxıstanlı ekspertlər belə hesab edirlər ki, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri alternativ rol oynaya bilər. Lakin problem bu kəmərə vurulan neftin həcminin minimal olmasıdır. Burada ən əsası tanker parkının yaradılmasına investisiya qoyulmasıdır, çünki Qazaxıstanın Xəzərin dibi ilə boru xətti yoxdur. Amma bu istiqamətdə iş artıq aparılır. Qazaxıstan Xəzərdəki Aktau limanının genişləndirilməsinə fəal şəkildə sərmayə qoymağa başlamışdır. Gələcəkdə Aktau limanı iki funksiyanı yerinə yetirə biləcək. Birincisi, Qazaxıstan enerji resurslarının Azərbaycan, Türkiyə və oradan da Avropaya ixracı artırılacaq. Həmçinin Qazaxıstan neftinin BTC vasitəsilə tədarükünə dair yeni sazişin imzalanması da istisna edilmir.

Aktau limanı həmçinin Çindən, Qazaxıstandan keçməklə Avropaya yük tranzitinin həcminə də təsir edəcək. Çin artıq Rusiyadan yan keçməklə Xəzər dənizi ilə alternativ marşrut açmışdır. Almaniyaya ilk qatar artıq yola salınmışdır. Qazaxıstan bu axınları öz üzərinə çəkmək marağındadır. Bizim ekspertlər belə hesab edirlər ki, Tokayev bu iki əsas mövzu üzrə də Bakıda danışıqlar aparacaq. Eyni zamanda Çindən Aktau limanı vasitəsi ilə Avopaya yüklərin daşınması da müzakirə olunacaq. Ekspertlər şərh edirlər ki, Ukraynada xüsusi əməliyyat başlayandan sonra Trans-Xəzər nəqliyyat marşrutu təkcə Qazaxıstan üçün yox, əksər ölkələr üçün prioritet istiqamətə çevrilmişdir. Artıq Tokayev rəsmi səviyyədə Qazaxıstanın tranzit potensialı və Qazaxıstan məhsullarının Azərbaycan üzərindən ixracı barədə tez-tez fikir söyləyir.

Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdykarimov bildirib ki, Tokayevin səfəri zamanı iki ölkə arasında əməkdaşlığın 2026-cı ilə qədər inkişaf etdirilməsi proqramının imzalanması nəzərdə tutulur.

Sonda onu da deyim ki, biz Azərbaycanı qarış-qarış gəzdik, Qubada, Qusarda, Xaçmazda olduq. Hər yerdə bizdən soruşurdular ki, haradan gəlmisiniz. Qazaxıstan deyəndə sevinirdilər, deyirdilər ki, biz qardaşıq. Hər yerdə bizi təbəssümlə qarşılayıb, təbəssümlə yola salırdılar. Biz Azərbaycana valeh olduq və indi "Azərbaycan" qəzeti ilə birlikdə ölkənizə həsr olunan xüsusi nömrəmizi çapa hazırlayırıq.

***Baktibay JUMADİLDİN,***
***"Kazaxtanu" jurnalının redaktoru***
*(məxsusi olaraq "Azərbaycan" qəzeti üçün)*

# Qarabağ iqtisadi rayonunda yerləşən Sərsəng Su Anbarına baxış keçirilib







Avqustun 23-də "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin nümayəndələri yerli mütəxəssislərin iştirakı ilə Qarabağ iqtisadi rayonunda yerləşən Sərsəng Su Anbarına baxış keçirib.

AZƏRTAC xəbər verir ki, məqsəd Sərsəng Su Anbarında texniki monitorinqin aparılması, cari vəziyyətlə tanışlıq, Tərtər çayından gələn və anbardan buraxılan suyun qrafikinin müəyyənləşdirilməsi və gələcəkdə bu istiqamətdə işlərin davam etdirilməsinə zəmin yaratmaq idi. Görüşdə əsasən iki məsələ - Su bölgüsünün aparılması və Sərsəng Su Anbarının alt suvarma ərazisində olan rayonlarına su verilməsinin bərpası müzakirə olunub.

Görüş və danışıqlar qarşılıqlı anlaşma və konstruktiv şəraitdə baş tutub. Həmçinin belə görüşlərin və əraziyə baxışın mütəmadi olaraq gələcəkdə də davam etdirilməsi razılaşdırılıb.

Xatırladaq ki, mühüm strateji əhəmiyyətə malik olan Sərsəng Su Anbarı Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilib. 1976-cı ildə Ümummilli Lider Heydər Əliyev su anbarının açılışında şəxsən iştirak edib. Azərbaycanın ölkə daxilində yaranan ən bolsulu çaylarından biri olan Tərtərçayın üzərində olan Sərsəng Su Anbarının ümumi həcmi 560 milyon kubmetrdir. Qarabağ iqtisadi rayonunun ən iri su hövzəsi olan Sərsəng Su Anbarı vasitəsilə 96 min hektar ərazi (Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Yevlax və Goranboy) suvarılır. Su anbarı bəndində ümumi gücü 50 mvt olan su elektrik stansiyası tikilib.

Hazırda Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş bütün ərazilərdə mövcud su ehtiyatlarından daha səmərəli istifadə edilməsi, yeni su mənbələrinin yaradılması, dağıdılmış infrastruktur obyektlərinin bərpası istiqamətində mühüm işlər həyata keçirilir.

# REGİONLAR



## Abşeronlu şəhid ailələrinin və qazilərin növbəti qrupu Naftalanda müalicəyə başlamışdır




Abşeron Rayon və Naftalan Şəhər icra hakimiyyətlərinin birgə təşəbbüsünün davamı olaraq, növbəti bir qrup şəhid ailəsi və qazi Naftalan şəhərində yeni istifadəyə verilmiş "Park Naftalan"da müalicəyə başlamışlar.

Bu münasibətlə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı müalicə mərkəzində olmuş, şəhid ailələri və qazilərlə görüşmüş, onlara yaradılan şəraitlə maraqlanmışdır. Keçirilən görüşdə şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra icra başçısı xalqımızın birliyindən, həmrəyliyindən danışaraq diqqətə çatdırmışdır ki, torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş vətən oğullarının ailələri, övladları, Qarabağ müharibəsi əlilləri və iştirakçıları, onların ailə üzvləri daim dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunurlar.

Şəhid ailələri və qazilər müalicə mərkəzində onlara göstərilən xidmətlərdən razı qaldıqlarını söyləmiş, buna görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə etmişlər. Sonda Naftalan Şəhər İcra Hakimiyyəti tərəfindən şəhid ailələrinə və qazilərə xatirə hədiyyələri təqdim olunmuşdur.

Qeyd edək ki, birgə layihə çərçivəsində şəhid ailələri və qazilərin Naftalanda fəaliyyət göstərən müalicə və sağlamlıq mərkəzlərində istirahəti və müalicəsi il ərzində davam etdiriləcəkdir.

## Müharibə zamanı Goranboyda dağıdılmış kənd məktəbləri əsaslı təmir edilmişdir

44 günlük Vətən müharibəsi zamanı erməni silahlı birləşmələrinin atdığı artilleriya atəşləri ilə əraziyə düşən mərmilərin partlaması nəticəsində Goranboy rayonunun bir neçə yaşayış məntəqəsində fərdi yaşayış evlərinə və sosial obyektlərə ciddi ziyan dəymişdir.



Vətən müharibəsindən öncə düşmənlə ən yaxın təmas xəttində yerləşən Tap kəndində məktəb binası da dağılmışdır.

Azərbaycan Respublikası Prezidentinin "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası Silahlı Qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində zərər vurulmuş obyektlərin bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" imzaladığı sərəncama əsasən, Qaraçinar və Tap kənd tam orta məktəblərində əsaslı təmir-bərpa işlərinə başlanılmış və qısa vaxtda başa çatdırılmışdır. Hər iki məktəb artıq yeni dərs ilinə hazırdır. Şagirdlər sentyabrın 15-də müasir laboratoriya və fənn kabinetləri ilə təchiz edilmiş tədris ocağında dərslərə başlayacaqlar.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## İndi Biləsuvar təkcə pambıqçılıq rayonu deyil

Cari ilin səkkiz ayının sona çatmasına sayılı günlər qalıb. Bir neçə gündən sonra 2022-ci ilin avqust ayı da tarixə çevriləcək. Şübhəsiz ki, bu tarixi özü üçün düşərli, yaxud uğursuz hesab edənlər olacaq. Amma indidən demək olar ki, Biləsuvar fermerləri ilin əvvəlindən ötən günləri, ayları, necə deyərlər, yelə verməmişlər.

Bəzi sahələr üzrə hətta təsərrüfat ili artıq başa çatmışdır. Xüsusilə taxılçılıqda əldə edilən göstəricilər daha çox ürəkaçandır. 2021-ci ilin payızında 2022-ci ilin məhsulu üçün 8 min 427 hektara buğda, 24 min 95 hektara arpa əkilmişdir. Zəmilərə nümunəvi aqrotexniki qulluq göstərilmiş, suvarma, yemləmə, alaq otlarına qarşı mübarizə tədbirləri vaxtında və keyfiyyətlə həyata keçirilmişdir. Çəkilən zəhmət hədər getməmişdir. 2021-ci ildə buğda sahələrinin hər hektarından 28, arpa zəmilərindən 26,3 sentner məhsul biçilmişdisə, cari ildə bu göstəricilər müvafiq olaraq 33,7 və 27,7 sentner olmuşdur. Fermerlər və torpaq mülkiyyətçiləri vaxt itirmədən zəmilərdən çıxmış bəlimi kipləşdirərək mal-qara üçün qışa tədarük etmiş, sonra isə taxılı biçilmiş həmin sahələrdə şum aparmışlar.

Biləsuvar Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik şöbəsinin müdiri Elman Musayev: "Yay şumunun əhəmiyyəti böyükdür. Taxıl biçinindən dərhal sonra əkin qatında olan nəmlik şum prosesini asanlaşdıraraq kotanı, traktoru həddən artıq gücə düşməkdən xilas etməklə bərabər, torpaqdakı ziyanvericilərin və alaq otlarının məhv olmasına da səbəb olur". E.Musayev yay şumu haqqında danışarkən belə bir rəvayət də söylədi: "Qoca bir kəndli oğlunun həddi-buluğa çatdığını görüb onu evləndirmək istəyir. Odur ki, oğlundan hansısa bir qıza aşiq olub-olmadığını soruşur. Oğlan padşahın qızını sevdiyini söyləyir. Qoca ümidsiz halda padşahın qızına elçi gedir. Padşah qocadan qızını onun oğluna verdiyi halda necə dolanacaqları, haradan pul-para əldə edəcəklərini soruşur. Qoca yazıq halda: "Padşah sağ olsun, 10 hektar yay şumundan başqa, heç nəyə gümanım gəlmir", - deyir. Padşah bunu eşidib fikrə gedir və "həmin şumla dolana bilərsiniz", - deyib qızını onun oğluna verməyə razı olur".



Biləsuvarda yay şumunun, növbəli əkinin əhəmiyyətini bilən torpaq mülkiyyətçiləri, fermerlər çoxdur. Onlar rayonda uzun illərdən bəri ənənəni uğurla davam etdirirlər. Bu iş pambıqçılıqda özünü daha çox göstərir. Lətif Cəfərov, Fazil Musayev, Şakir Soltanov və digər qabaqcıl fermerlər öz işlərinin, türklər demiş, uzmanıdırlar. Onlar 90-cı illərdə pambıqçılığa ögey münasibət zamanında belə onu əkib-becərməkdən üz döndərmədilər. Çünki onlar pambığın digər bitkilər üçün yaxşı sələf olduğunu, torpağı safa çıxardığını bilirdilər.

Dövlət tərəfindən pambıqçılığın inkişafı ilə əlaqədar görülən tədbirlər son illər rayonda bu sahənin inkişafı üçün stimul yaratmışdır. Verilən subsidiyalar, habelə xam pambığın qiymətinin artırılması nəticəsində rayonda pambıq istehsalı ildən-ilə artmaqdadır. Cari ilin əvvəlində "MKT-İK" MMC, "P-Aqro" MMC və "Azərpambıq" MMC-nin rayonda fəaliyyət göstərən filialları ilə müqavilə bağlayan fermerlər yazda 7 min 442 hektar sahəyə çiyid səpmişlər. Filiallar sahibkarlara şumdan tutmuş yığıma qədər kömək etmək öhdəliklərini öz üzərlərinə götürmüşlər. Artıq avqust ayı başa çatmaq üzrədir. Sahələrdə bir tərəfdə kompleks becərmə işləri davam etdirilirsə, digər tərəfdə yığıma hazırlıq görülür. Xarici markalı 44 pambıqyığan maşın, məhsulu sahədən filial məntəqələrinə daşıyacaq 254 lafet, 125 traktor, defilyasiya üçün 10 çiləyici aparat və digər texnikalar təmir edilərək saz hala gətirilmişdir. Qapan-tərəzi, laboratoriyalarda nəmliyi, zibilliliyi ölçən cihazlar da məhsul qəbuluna hazırdır.

Rayonda heyvandarlığın inkişafı, əhalinin ət, süd, yumurta məhsullarına olan tələbatının ödənilməsi sahəsində də müəyyən işlər görülür, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması başlıca məsələ kimi diqqət mərkəzində saxlanılır. Səmədabad kəndi ərazisində yerləşən "Süd" MMC-nin işi bu baxımdan təqdirəlayiqdir. Hazırda burada 200 baş cins mal saxlanılır. Cari ilin ötən dövrü ərzində 621 baş malda süni mayalanma aparılmış, 202 baş buzov alınmışdır. Alınan hər baş buzova görə dövlət tərəfindən 100 manat subsidiya verilmişdir.

Qarşıdan payız, ardınca qış gəlir. Mal-qaranı həmin sınaq fəsillərindən sağlam və gümrah çıxarmaq üçün heyvandarlar tərəfindən 543 min 354 tondan çox arpa, qarğıdalı, buğda, 354,2 ton ot, bəlim və digər qaba yemlər tədarük edilmişdir. Mövcud olan 8 min hektar yonca sahəsində 3-cü biçin başa çatdırılmışdır.

Biləsuvar balı eşitmisiniz? Bəli, təəccüblənməyin, son illər Biləsuvarda arıçılıq da inkişaf edir. Arı ailələrinin sayı artıq 4 mini ötüb. Arıçıların sayı isə 110 nəfərdən çoxdur. Bu isə o deməkdir ki, indi Biləsuvar deyəndə ağlınıza təkcə pambıq gəlməsin.

*Seyran CAVADOV, "Azərbaycan"*

## Ağcabədili gənclər "İnkişafa mərkəzdən başla" layihəsi çərçivəsində 5 günlük təlimə cəlb olunublar

Gənclərin İnkişaf və Karyera Mərkəzinin Ağcabədi nümayəndəliyi gənc könüllülər üçün "İnkişafa mərkəzdən başla" layihəsi çərçivəsində 5 günlük təlim keçirib.

AZƏRTAC xəbər verir ki, təlimin birinci günü ilk mövzu "Analitik təfəkkür və yaradıcı düşüncə" olub. Təlimçi Ləman Zeynalova tərəfindən gənclərə "Analitik təfəkkür nədir?", "Analitik təfəkkürün növləri hansılardır?", "Yaradıcı düşüncə nədir?" mövzuları haqqında məlumat verilib.

"Ünsiyyət bacarıqları təlimi" mövzusuna həsr olunan təlimin ikinci günü gənclər "Ünsiyyət nədir?", "Ünsiyyət formaları hansılardır?", "Məişət üslub nədir?", "Publisistik üslub nədir?" mövzuları ilə bağlı məlumatlandırılıblar.

Növbəti günlərdə gənclərə təlimçilər Şahin Qarakişiyev, Kənan Səmədov və Aytac Abdullayeva tərəfindən "Komanda işi", "Problem həll etmə bacarığı", "Zamanın idarə olunması" mövzusu üzrə təlim keçirilib. Təlimlər zamanı gənclərə komanda işinin əhəmiyyəti, komandaların xüsusiyyətləri, sinerji və ondan istifadə qaydaları, problemin düzgün müəyyənləşdirilməsi üsulları, problemlərin həlli yollarının axtarılması, problemlərin əsaslı həlli və davamlı işin təmin olunması üçün münaqişələrin idarə olunması, problemlərin qarşılıqlı anlaşma yolu ilə həll qaydaları, zaman, məqsəd və hədəflərin müəyyənləşməsi, zamanı idarə etmək və uzunmüddətli planların tərtibi haqqında məlumatlar verilib.

## Xaçmazda fındıq yığımının qızğın çağıdır: məhsul bol, qiymət ucuzdur

Xaçmazın fındıq bağlarında məhsul yığımının qızğın çağıdır. Məhsul yığımı ilə yanaşı, fındığın qabıqdan təmizlənməsi və qurudulması prosesi də həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, təsərrüfatçılar avqustun ilk günlərindən fındığın toplanmasına başlayıblar. Bağlarda məhsuldarlıq yüksəkdir. Məhsul bol olsa da, qiymət ötən illərlə müqayisədə aşağıdır. Hazırda yığılan fındığın bir kiloqramı təsərrüfatçılardan 2,5-3 manata alınır.

Əksər təsərrüfatçılar məhsulu daha münasib qiymətə satmaq üçün anbarlarda saxlayırlar. Məhsul əsasən payız-qış aylarında yerli bazarlarda satılır. Bununla yanaşı, rayonda 10-dan çox fındıq qəbulu məntəqəsi və fındıq emalı müəssisələri məhsulu fermerlərdən sərfəli qiymətə alırlar.

Xaçmaz rayonunda 10 min hektara yaxın fındıq bağları mövcuddur. Bu bağların 5 min hektarı barverəndir. Hər il Xaçmazın fındıq bağlarından 6-7 min ton məhsul yığılır.

Rayonun Çiləgir kəndindən olan təsərrüfatçı Aydın Mahmudov 1 hektar fındıq bağından hər il 1,5 ton məhsul toplayır. "Yığım sentyabrın ilk ongünlüyündə yekunlaşacaq. Məhsulu vaxtında toplamaq üçün fəhlələr cəlb etmişik. Fındığın bir kiloqramını 40 qəpiyə yığırlar. Amma son iki ildə fındığın qiyməti ucuzlaşıb. Əvvəllər qış aylarında qurudulmuş fındığın bir kiloqramı 5-6 manat civarında satılırdı. İndi isə qiymət 3-3,5 manatdır. Məhsulumuzu toplayıb, qurudub, anbarda saxlayacayıq. Ehtiyacı olan indi satır. Amma əksəriyyət payız-qış aylarında satmağa üstünlük verir", - deyə təsərrüfatçı bildirib.

Xaçmazlı fermerlər bir neçə ildir ki, fındığın qabıqdan təmizlənməsi üçün xüsusi aqreqatlardan istifadə edirlər. Bu texnologiyanın tətbiqi təsərrüfatçıların işini xeyli yüngülləşdirir. Belə ki, bağından 1 ton fındıq əldə edən təsərrüfatçı əvvəllər bu məhsulu qabıqdan təmizləmək üçün ailə üzvləri ilə birlikdə 7-10 gün vaxt sərf etməli olurdu. Fındıq təmizləyən texnika isə bu işi cəmi bir saata görür.

## Qubada turizm mövsümünün sonu olmur

Qubanın ən çox üz tutulan turist marşrutlarından olduğu çoxdan məlumdur. Bu müddət ərzində Qubada turizm infrastrukturunun yaradılması və inkişafı istiqamətində əhəmiyyətli işlər görülüb.

Burada müasir istirahət mərkəzləri, yeni hotellər tikilib, qədim tarix-mədəniyyət abidələri təmir olunub, sənətkarlıq nümunələrinin nümayiş etdirilməsi üçün şərait yaradılıb və s. Olimpiya idman kompleksi, SPA mərkəzləri, Xınalıq, Cek, Qrız və digər kəndlər, qədim xalçaçılıq sənətinin inciləri və onlarca digər göstəricilər bu gün Qubanın turizm simasıdır. Rayonda 140-dan çox tarix-memarlıq, o cümlədən 70 təbiət abidəsi də var. Təbii fəlakətlər zamanı yaranmış bu abidələrə yerli əhali təbiət möcüzəsi deyir.

"Gəlin qayası", "Qızıl qaya", "Gülcahan daşı", "Xan bulağı", "Daş gəlinlər", "Ağacda ev", "Xaltan suyu"nu başqa necə adlandırmaq olar ki… Onu da qeyd edək ki, rayon ərazisindəki 60-dan çox arxeoloji abidənin böyük hissəsi IV-XVII əsrlərə aiddir. Əvvəlki illərdə onların bir çoxunun yolu təmirsiz idi. Sonralar yollar təmir edilmiş, bəzi ərazilərdə isə yeni turizm infrastruktur sahələri yaradılmışdır.

Rayonda turizmin inkişafında Quba Destinasiya Menecmenti Təşkilatı əhəmiyyətlli rola malikdir. Turizm bürosunun təşkilatçılığı ilə "Şimal və şimal-qərb regionunda dağ turizm marşrutlarının tədqiqi və cığırların işarələnməsi" layihəsi çərçivəsində Quba dağ turizmi üzrə dörd piyada marşrutu hazırlanıb. Xınalıq-Qalaxudat, Qalaxudat-Qrız, Qrız-Qrızdəhnə marşrutları üzrə yüzlərlə insan ecazkar təbiəti seyr edir, adrenalin yaşantıları onların yaddaşında xatirəyə çevrilir.

Turizm həm də beynəlxalq əlaqələrin inkişafı deməkdir. Məsələn, Dövlət Turizm Agentliyi və İsrailin Azərbaycandakı səfirliyinin təşəbbüsü ilə turizm marşrutlarının inkişafı və təkmilləşdirilməsi məqsədilə "Qırmızı qəsəbə"də yeni turizm məlumat nişanları hazırlanaraq istifadəyə verilib. Yaxın zamanda daha bir neçə ölkənin məlumat lövhələrinin açılışı gözlənilir.

Turistlərin gəzinti zamanı görmək istədikləri yerlərdən biri də Quba Memorial Soyqırımı Kompleksidir. Azərbaycanlıların vəhşicəsinə qətlə yetirildikləri yerdə ucaldılan kompleksdə ermənilərin yerli əhaliyə tutduqları divan konkret faktlarla ziyarətçilərə təqdim olunur. Ziyarətçilərin isə sayı az deyil. Təxmini hesablamaya görə, son bir ildə kompleksi 15 mindən çox xarici turist ziyarət edib.

Rayonda kənd turizminin inkişafı istiqamətində də xeyli iş görülüb. Susay, Təngəaltı, I Nügədi, II Nügədi, Pirvahid və digər kəndlərdə hər mövsüm saysız-hesabsız turist dincəlir. Bu yolla evləri kirayə götürən turistlər həm yerli sakinlərin ailə büdcələrini artırır, həm də özləri səs-küylü bahalı istirahət məkanlarından uzaq olub təbii kənd həyatının ləzzətini yaşayırlar.

Bu cür istirahət və səyahət həvəskarları daha çox Xınalığa yol alır və kəndin mədəniyyəti, dili barədə məlumatlarla maraqlanırlar. Həmin istiqamətdəki Qrız kəndi də onların marağından qaçmır. Bir çox turistlər isə özləri ilə gətirdikləri çadırları kəndlərin ətrafında quraraq istirahətlərini torpaqla təmasda keçirirlər. Məsələn, yayın əvvəlindən bəri Təngəaltı, Xuçbala, Qrız, Gültəpə istiqamətində bir neçə təbii turist düşərgəsi salınıb.

Artıq payızın astanasındayıq. Qubada bu fəslin gözəlliyi heç də yaydan geri qalmır. Ağacların 7 rəngli xəzəlləşən dünyasını müşahidə etmək insan ruhunu və gözünü oxşayır. Bu hissi də yaşamaq istəyirsinizsə, Quba sizin yolunuzu gözləyir.

*Akif ƏLİYEV, "Azərbaycan"*



## Neftçalada ümumi məhsul istehsalı artıb

Neftçalanın iqtisadi inkişafını xarakterizə edən əsas makro göstərici - ümumi məhsulun həcmi 2022-ci ilin yanvar-iyun aylarında 156,4 milyon manata çatıb.

Əhalinin hər nəfərinə düşən ümumi məhsulun həcmi 1745,4 manata bərabər olub.

Rayon statistika idarəsindən verilən məlumata görə, ümumi məhsulun 40,8 milyon manatı və ya 26,1 faizi sənaye sahələrində, 64,6 milyon manatı və ya 41,3 faizi kənd təsərrüfatında, 7,9 milyon manatı və ya 5,1 faizi tikintidə, 1,6 milyon manatı və ya 1,0 faizi nəqliyyatda, 0,6 milyon manatı və ya 0,4 faizi informasiya və rabitədə və 40,9 milyon manatı və ya 26,1 faizi isə ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində formalaşıb.

## Kürdəmirdə 335 hektarda təkrar qarğıdalı əkilib

Kürdəmir rayonunda 334,6 hektar sahədə təkrar qarğıdalı əkilib və artıq hər yerdə normal çıxış alınıb.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən xəbərə görə, aqrar rayon olan Kürdəmirdə iri heyvandarlıq təsərrüfatları var. Mal-qaranın möhkəm yem bazası ilə təmin olunmasında təkrar qarğıdalı əkini mühüm əhəmiyyət kəsb edir. Bunu yaxşı bilən heyvandarlar hazırda əkin sahələrinə aqrotexniki qulluğu davam etdirirlər. İndi bütün ərazilərdə sahələrin ikinci suvarması başlanıb.

Xəbərləri AZƏRTAC yayıb.

Sosial oçerk

# Gecikmiş etiraf

## "Başım "polad at"ıma elə qarışdı ki, "ağ at"lı oğlanların mənə nəzər saldıqlarına məhəl qoymadım"

Fəridə evə yorğun qayıtmışdı. Gündüz institutda işi çox olmuş, üstəlik, evə gəlmək üçün mindiyi darısqal, həm də sərnişinlə dolu avtobus Biləcəri enişində güclü tıxaca düşmüşdü. Elə yenicə qapıdan girib dəhlizdəki sevimli köhnə kreslosuna çökmüşdü ki, mobil telefonuna tanış olmayan nömrədən zəng gəldi. Danışanın səsi də tanış deyildi. Yaxşı ki, zəng vuran xanım özünü dərhal təqdim etdi:



- Tanımadın, bacı? Mənəm də, Gülsənəm...

Fəridə çoxdandır bu səsi və bu adı eşitmirdi. Gülümsündü. Elə bu darmacalda xatırladı ki, cavanlıqda rəfiqəsindən adının ona kim tərəfindən verildiyini soruşmuş və "nənəmə yuxuda deyilib" cavabını almışdı. Nədənsə bu ad Fəridəyə maraqlı gəlirdi. Hətta yadına düşdü ki, o vaxtlar Gülsənəmə elçi düşən oğlanlardan biri ona məhəbbətini belə izhar etmişdi: "Gəl, sənin adını bölək. Özün üçün elə Gül, mənim üçün isə Sənəm ol". Gülsənəm ona evlənmək barədə söz açan, qapıya elçi göndərən digər cavanlar kimi bu kəndlisinə də məhəl qoymamışdı...

- Fəridə, Fəridə, eşidirsən məni?

Fəridə birdən anladı ki, keçmiş rəfiqəsinin zəngi onu bayaqdan çox uzaqlara "aparıb":

- Eşidirəm, eşidirəm, nə yaxşı zəng vurdun. Hər dəfə yolum rayona düşəndə səni soraqlamışam. Deyiblər ki, Türkiyədəsən. Əlavə bir məlumat ala bilməmişəm.

Gülsənəm: "Dayan, indi sənə vatsapla zəng edəcəyəm...", - dedi və beləcə söhbət uzandı: "Müalicə olunurdum Türkiyədə, Fəridə. Ailəsi ilə birlikdə Türkiyədə yaşayan xalam qızı məni oraya aparmışdı. Demişdi ki, həm bizə qulaqyoldaşı olarsan, həm də müalicə etdirərik səni. Dörd il onun evində ailəsinin bir üzvü kimi yaşadım. Qayğıkeşliklərini, eləcə də olan imkanlarını məndən əsirgəmədilər. Səhhətim xeyli yaxşılaşdı. Ancaq başqasının evində bir gün, beş gün qonaq qalmaq olar. Axır vaxtlar çox sıxılmağa başladım. Həm də elə bil vətənim, kəndim, torpağım çəkib gətirdi məni evimə".

Gülsənəm susmaq bilmirdi. Ürəyi dolu idi, sanki çoxdandır dərdləşməyə bir adam axtarırdı. Danışdıqca arada elə bil təngnəfəs olurdu. Amma sözünə davam edirdi: "Yadındamı, bacı, mən "polad at"ımla tarlalarda necə cövlan edirdim. Bir vaxtlar mexanizator Sevil Qazıyevanın ardıcılı olan neçə-neçə gənc qız pambıqyığan maşının sükanı arxasına keçmişdi və onların sayı ilbəil artırdı. Mən isə bu təcrübəni bizim üzümçülük rayonunda tətbiq etmək qərarına gəldim. Qardaşlarıma qoşulub üzüm bağlarına yollandım. Bu sahədə istifadə olunan texnikanın hamısının "dil"ini bilirdim. Odur ki, məhsulun yetişdirilməsinin bütün mərhələlərində iştirak edirdim. Ən çətini isə "dəmir at"ın belindən cərgəli bağlara ziyanvericilərlə, xəstəliklərlə mübarizə üçün dərman çiləmək idi. Anam bu dərman məsələsindən çox narahat olardı. Deyərdi ki, bala, qorxuram bunun sənin canına zərəri dəyə... Lazım gələndə taxılçıların da, tərəvəzçilərin də köməyinə çatırdım. Üzüm yığımından sonra "at"ımı çapırdım Kür qırağına. Ona yedək qoşub orada yetişdirilən qarpızyemişi qəbul məntəqələrinə daşıyırdım.

Tezliklə müxbirlərin sevimli qəhrəmanına çevrildim. "Polad at"ımla birgə şəkillərimiz qəzet, jurnal səhifələrindən düşmürdü. Televiziya gedirdi, radio gəlirdi. Veriliş hələ səslənməmiş televiziyanın başqa bir proqramından zəng edirdilər.

Hökumətin mənə bağışladığı qırmızı "Jiquli" evimizin böyük külfətinin karına gəlirdi. Mükafatlandırıldığım "Lenin" ordenini isə mücrüdə tay-tuşum qızlar nişan üzüyünü əzizlədiyi kimi qoruyurdum. Rayon mərkəzindəki iclas və konfranslardan, seçicilərimlə görüşlərdən birbaşa çölə, "polad at"ımın yanına tələsirdim. Bakıdakı qurultay və başqa tədbirlərdən qatarla geri qayıdanda, evə dönmədən dəmir yolu vağzalından plantasiyalara gedirdim. Bu həyata elə alışmışdım ki, başqa heç nə barədə düşünməyə vaxt tapmırdım. Nə bilim, bəlkə də heç düşünmək istəmirdim. Nə səhhətimlə maraqlanırdım, nə gələcək həyatımı fikirləşirdim... Ailə qurmaq təklifi edənlərin hərəsini bir bəhanə ilə pərən-pərən salırdım. "İki qoçun başı bir qazanda qaynamaz" zarafatı ilə çəpər qonşumuz Qəzənfər dayının qabaqcıl mexanizator olan oğlunu da fikrindən daşındırdım. Halbuki əl-ələ verib bir-birimizə dəstək ola-ola yaşaya, işləyə bilərdik. Beləcə, mən "polad at"ımın belində olanda yanımdan neçə-neçə "ağ at"lı oğlan keçib getdi".

Deyəsən, Gülsənəm bu axşam heç susmayacaqdı: "Üzüm bağları yerlə-yeksan ediləndən sonra yaxınlıqdakı idarədə sadə işdə çalışırdım. Bir gün anam zəng vurdu ki, işdən icazə alıb evə bir az tez gəl, uzaqdan qonağımız var. Çoxdandır görməsəm də, qonağı o dəqiqə tanıdım. Uzaq qohumumuz idi. Neçə illərdir Moskvada yaşayırdı. Uğurlu biznes, yaxşı güzəran qurmuşdu. "Dilmanc"sız danışacağam" deyərək qonağımız fikrini vasitəçisiz, elçisiz özü açdı. Dedi ki, Gülsənəm, Allah şahiddir, illərdir qəlbimdəsən. Tale belə gətirdi, o vaxt niyyətimi aça bilmədim. Bəlkə bunun bir günahı da sənin özündə oldu... Mən subay bir insanam. Yerin və göyün qanunları ilə sənin həyat yoldaşın olmaq istəyirəm. Sözümü yerə salma, bir-birimizin haqqında düşünək. Həmişə arzulamışam ki, sənə oxşayan qaragöz, qıvrımsaç qızımız olsun.

Bacı, mən bunları eşitcək durub otaqdan çıxarkən o, yavaşca biləyimdən tutdu. Dedi ki, düşünmə səni var-dövlətlə şirnikləndirmək istəyirəm. Amma bildirməliyəm ki, dünya malından da qane olacaqsan. Yaşadığım yerdə geniş mənzilim, yaşıllıq içində bağ evim var. İstəsən, Bakıda kooperativ mənzil tikdirməyə, bax, kəndimizin özündə, dədə-baba məhləmdə təzədən babat bir ev qaldırmağa da imkanım çatar. Zərgərlik mağazasında əlini nəyin üstünə qoysan, sənin olacaq. Yetər ki, "hə" deyəsən. Əlini döş cibinə tərəf uzadıb əlavə etdi ki, bax, bu əmanət kitabçası da sənə toy hədiyyəm olacaq. Orada 24 min...

Bunları eşidəndə isə lap cin atına mindim: "Bu, deyəsən, məni acgöz, meşşan bir qadın hesab edir". İllər sonra başa düşdüm ki, həyatımın növbəti səhvini buraxmışam...

Anam dünyasını dəyişdi, qardaşlar evləndi, bacılar ərə getdi. Demirəm ki, məni unutdular. Amma necə olsa da, hərənin öz evi, öz ailəsi, öz uşaqları və öz qayğıları... Ən nəhayət, zəif canımla, pisləşmiş səhhətimlə üz-üzə qaldım. Beləcə, güzarım Türkiyəyə, xalam qızıgilə düşdü və indi artıq buradayam, kənddə, öz evimdə".

Bu arada telefonda Gülsənəmdən başqa daha bir qadının səsi gəldi. "Yanındakı kimdir?", - deyə Fəridə soruşdu. Telefondan pıçıltılı səs gəldi: "Rayona, sosial müdafiəyə müraciət etmişdim. Bir işçilərini təyin ediblər, həftədə iki dəfə gəlir, ev işlərində kömək edir. Axı mən..."

Özü haqda deyiləsi nə vardısa, Gülsənəm artıq söyləmişdi və yalnız indi yadına düşdü ki, bayaqdan Fəridənin haləhvalını heç xəbər almayıb. Səhvini düzəldərək soruşdu ki, qızların necədir? Yəqin üçünü də köçürmüsən. Eşidəndə ki, hələ tələsmirlər, oxuyurlar, işləyirlər, karyera qururlar, "çox gözəl, çox pakizə, sevindim xeyli", - dedi Gülsənəm. Və bu axşam ilk dəfə gülümsündü: "Bizim kəndin sözü olmasın, bəs onlara demirsən ki, bala, məgər qoyun otaran quzu otarmır?" "Başına gələnlərdən başmaqçı olan" Gülsənəm yəqin demək istəyirdi ki, məgər karyera haqqında fikirləşən ailə qura bilmir?!

Bayaqdan söhbətə arabir qulaq verən Aytən yan otağın qapısından boylandı:

- Ay ana, Gülsənəm xala bu qədər nədən danışırdı belə?

Fəridə fikirli-fikirli dilləndi:

- Heç, qızım... Deyirdi ki, qızlarımız sənətə çox aludə olanda, elmin dərinliyinə baş vuranda lap yaxınlıqda dayanan ailə xoşbəxtliyini, analıq səadətini özlərindən qaçaq salmasınlar.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Mavi Xəzərin sahilindəki möcüzə

Sumqayıt Azərbaycanın ən gənc şəhərlərindən biri kimi tanınıb. Bir vaxtlar şöhrəti bütün dünyada dolaşan sənaye şəhərində xalqımız gerçəkdən xariqələr yaradıb. Ötən əsrin ortalarında Xəzərin qumlu sahillərində möhtəşəm bir şəhər salınıb. Bu yerin fərqliliyi haqda çox şey yazmaq olar. Lakin bizim gənclik şəhərinə səfərimizdə əsas məqsəd burada yerləşən Dənizkənarı parkdan reportaj hazırlamaq idi.

Park dəniz səviyyəsindən orta hesabla 5-10 metr hündürdə və dənizdən 50-100 metrədək aralı yerləşir. Parkla dəniz arasında isə yay mövsümündə çimərliklər təşkil olunur. Yeni bulvar qısa zamanda həm yerli sakinlərin, həm də şəhərin çoxsaylı qonaqlarının sevimli istirahət məkanına çevrilib.

### Ölkəmizin ikinci böyük dənizkənarı parkı

2016-cı ildə ümumi sahəsi 106 hektar, uzunluğu 4,2 kilometr olan ərazidə möhtəşəm bulvar yaradıldı. Burada şəhər sakinlərinin piyada gəzintisi, avtomobil yolu, istirahət obyektləri, uşaqlar üçün əyləncə mərkəzi, idman infrastrukturu quruldu, fərqli ölçülərdə və bir-birini təkrarlamayan yaşıl parklar salındı. Sumqayıt bulvarı əlavə olaraq daha 40 hektar genişləndirilib, bir kilometr uzadıldı. Hazırda 5,2 kilometr uzunluğu, 150 hektar sahəsi olan bulvar kompleksi bu gün şəhər sakinlərinin ən çox ziyarət etdiyi məkanlardan biridir.

"Sumqayıt bulvarı isə hesab edirəm ki, bir möcüzədir. Sumqayıt bulvarının yaradılması ilə bağlı mən hələ bir neçə il bundan əvvəl şəhər rəhbərliyi qarşısında vəzifə qoymuşdum. Sumqayıtlılar yəqin ki, xatırlayırlar, hətta bir neçə il bundan əvvəl mənim üçün təqdimat da keçirilmişdi. Hər zaman maraqlanırdım ki, işlər necə gedir. Məlumat verilirdi ki, orada çətinlik, burada çətinlik var. Ancaq bu gün Sumqayıt bulvarı artıq açılıb. Bu bulvarın yaradılmasında şəhər rəhbərliyinin xüsusi rolu, Sumqayıt sakinlərinin böyük rolu var. Mən çox istəyirdim ki, Sumqayıtda Bakı bulvarına bənzər bir bulvar olsun. Bu gün biz buna nail olduq".

Bu fikirləri Prezident İlham Əliyev 27 sentyabr 2016-cı ildə Sumqayıtda şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı səsləndirmişdi.

Bəli, Sumqayıtda bulvarın olması şəhər sakinləri ilə yanaşı, ölkə rəhbərliyinin də arzusu olmuşdur. Bir faktı da qeyd edək ki, hələ 1974-cü ildə Sumqayıt şəhərinin 25 illik yubiley tədbirində Ümummilli Lider Heydər Əliyev də çıxışı zamanı Sumqayıtda dənizkənarı bulvarın yaradılması arzusunu səsləndirmişdi…





### Yerli sakinlərin və qonaqların sevimli məkanı

Parkda istirahət edən Sumqayıt sakinləri fikirlərini bizimlə bölüşdülər. 75 yaşlı Asif Məmmədov aparılan genişmiqyaslı işlərə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi: "Mən buraların dünənini yaxşı görmüşəm, qamışlıq, çirkab, şoran çöllər...Buraya heç kim gəlmək istəmirdi, amma bu gün gələn getmək istəmir".

Bakıdan Sumqayıt bulvarına üz tutan Bəxtiyar Fətullayev də məmnunluğunu ifadə edir: "Sumqayıt inkişaf baxımından paytaxt şəhərinə yaxın olmalıdır və bu gün biz bunu görürük. Sumqayıt kimi gözəl şəhərdə insanların istirahəti üçün mütləq bulvar olmalı idi. İndi bura Sumqayıtın əsas istirahət zonasıdır, görün, nə qədər gözəlləşib".

Burada müxtəlif təyinatlı obyektlər - kafelər, istirahət mərkəzləri, oyun salonları və digər xidmət sahələri fəaliyyət göstərir. Parkın qərb hissəsi daha maraqlıdır, yüz-iki yüz metrdən bir meydança və abidə var. Sumqayıt bulvarı və Dənizkənarı parkı həm ərazisinə, həm də landşaftına görə ölkəmizdə mövcud olan əksər parklardan seçilir. Bu parkın çimərliyə birbaşa çıxışının olması onu digər bulvarlardan fərqləndirir. Ərazidə 16 metr enində asfalt yol salınıb. Bundan başqa, istinad divarı tikilib və mərmərlə üzlənib. Geniş miqyasda yaşıllıq sahəsi salınıb, müasir işıqlandırma sistemi qurulub.

Bulvarda kiçik ölçülü gəzinti avtobusları və avtomobil yolu ilə yanaşı, velosiped idmanı ilə məşğul olmaq istəyənlər üçün də 3 metr enində xüsusi hərəkət zolağı salınıb.

Park-bulvar kompleksində 10 min oturacaq qoyulub. Beş yerdə böyük fəvvarə kompleksi tikilib, su təchizatı və kanalizasiya şəbəkəsi yaradılıb.

### Əzəmətli Bayraq meydanı

Parkın içi ilə qərb istiqamətində irəlilədikcə maraqlı mənzərələrlə qarşılaşırıq. Həmişəyaşıl ağaclar, maraqlı attraksionlar, hündürdən görünən dəniz mənzərəsi parka xüsusi gözəllik verir. Bulvarın mərkəzinə doğru irəlilədikcə gözümün önündə daha gözəl mənzərələr açılır.

Sumqayıt bulvarı ərazisində yerləşən Muğam mərkəzinin ətrafı da abadlaşdırılıb. Burada yaradılan şərait bir daha təsdiqləyir ki, xalqımızın ən qədim musiqisi olan muğamın yaşadılması, onun gələcək nəsillərə çatdırılması daim diqqət mərkəzindədir. Sumqayıtda yeni tikilmiş ikinci "ASAN xidmət" mərkəzinin binası da dəniz kənarındakı gəzinti yerində yerləşir.

Ərazidə Bayraq meydanı inşa olunub. Azərbaycan Respublikasının Dövlət bayrağı meydanda 42 metr hündürlükdəki bayraq dirəyi üzərində dalğalanır. Muzeyin məhz bu ərazidə inşa edilməsi şəhər sakinləri ilə yanaşı, qonaqların da buradakı eksponatlarla tanış olmalarına imkan yaradır.

### Şəhər bulvarı Avropada mükafatlar aldı

Sumqayıt bulvarı "Global Trade Leaders" klubunun "Keyfiyyətə görə Beynəlxalq Avropa mükafatı"na (International Europe Award for Quality) layiq görülüb. Mükafatı təsisatın baş katibi Rikardo Lopes oktyabrın 16-da qurumun Paris "Meridien Etoile" hotelində keçirilən forumunda təqdim edib.

Prezidentin möcüzə adlandırdığı Sumqayıt bulvarı İspaniyanın paytaxtı Madriddə keçirilən "Global Trade Leaders Club"un 24-cü Beynəlxalq üstünlük və liderlik forumunda "İnternational Award for Excellence & Leadership" mükafatına da layiq görülüb.

Bu kompleksdəki şərait sübut edir ki, Azərbaycan dövləti vətəndaşların istirahətlərini mənalı təşkil etmək, asudə vaxtlarını səmərəli keçirmək üçün bütün zəruri addımları atır. Xəzərin sahilindəki bu kompleks Sumqayıt şəhərinin simasının daha da gözəlləşdirilməsi baxımından olduqca əhəmiyyətlidir.

***Elşən YƏHYAYEV,***
***"Azərbaycan"***

# Ermənistan müharibə cinayətlərinə görə cavab verməli olacaq

*Əvvəli 1-ci səh.*

Bu hal Ermənistan Respublikasının digər dinlərə münasibətini və həqiqi simasını əks etdirir.

Ermənilər müxtəlif ölkələrdə saxtakarcasına guya Azərbaycanın xristian abidələrini dağıtdığını iddia edir və ölkəmizi hər vəchlə nüfuzdan salmağa çalışırlar. Azərbaycan xalqına, onun qədim mədəniyyətinə qarşı şər və iftira siyasətini davam etdirirlər. Bu, təbii ki, Azərbaycanın imicinə kölgə salmaq məqsədi daşıyır. Amma erməni tərəfinin bu cəhdləri əbəsdir. Çünki Azərbaycan bütün dinlərə məxsus abidələri qoruyub saxlayıb, təmir edib. Digər tərəfdən bütün dünya işğaldan azad edilmiş ərazilərdə erməni vandalizmindən və vəhşətindən şoka düşüb.

### Misli görünməmiş vandallıq

Erməni tərəfinin törətdiyi qeyri-insani hərəkətləri adi sözlə ifadə etmək çətindir. İşğal dövründə xalqımızın tarixi yaddaşını yox etmək, qədim Azərbaycan torpaqlarında türk-müsəlman mədəniyyətinin izlərini silmək üçün hər cür saxtakarlığa əl atıblar. Bu əraziləri tərk edəndə də erməni vandalları yaşayış binalarını və evləri, məktəbləri və digər mülki infrastrukturu yandırıblar, ağacları kəsiblər və bununla da faktiki olaraq amansız ekoloji terror aktları törədiblər.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən qəzetimizə verilən məlumata görə, həyata keçirilən monitorinqlər zamanı dövlət qeydiyyatına alınmış 185 tarix-mədəniyyət abidəsinin dağıntıya məruz qaldığı müəyyən edilmişdir ki, onlardan 51-i tamamilə məhv edilmiş, 134-ü isə dağıdılmış, qalıqları tapılmamışdır. Həmçinin aparılan ilkin monitorinqlər zamanı 864 mədəniyyət müəssisəsi aşkar edilmişdir ki, onlardan 462-si kitabxana, 348-i klub müəssisəsi, 20-si muzey, 26-sı uşaq musiqi məktəbi, 1-i kinoteatr, 2-si teatr, 2-si qalereya, 3-ü kinoklubdur.

İlk insan məskənləri olan məşhur və tarixi Azıx və Tağlar mağaraları, qədim Qaraköpək və Üzərlik təpələri hərbi məqsədlər üçün istifadə olunub və planlı və sistematik şəkildə məhv edilib. Erməni vandalları Köçərli, Mərdinli və Cümə məscidini, Aşağı Gövhər ağa və Yuxarı Gövhər ağa məscidlərini, Şuşa şəhərindəki tarixi memarlıq qoruğunun ərazisindəki şair Xurşid Banu Natəvanın saray kompleksini söküb talan ediblər. Qarabağ xanının inşa etdiyi saray, Ağdamdakı Cümə məscidi və Laçın bölgəsindəki Həmzə Sultan və Sultan Əhməd sarayları tamamilə dağıdılıb. Bununla yanaşı, işğalçılar genişmiqyaslı və peşəkar olmayan arxeoloji qazıntı işləri apararaq təbii və maddi-mədəni abidələri məhv edib və ya talan edib, Ermənistana daşıyıblar.

Memarlıq və arxeoloji abidələrlə yanaşı, bağ-park, monumental və xatirə abidələri də dağıdılmışdır. Belə ki, Qubadlı, Füzuli və Ağdam şəhərlərində vaxtilə yerləşmiş 1941-1945-ci illər müharibəsində həlak olmuş həmvətənlərimizin xatirə abidələri tamamilə məhv edilmişdir. Füzuli şəhərində Məhəmməd Füzulinin heykəli, Laçın rayonunun Güləbird kəndində Sarı Aşığın xatirə muzeyi, Molla Pənah Vaqifin Şuşa şəhərində yerləşən büstü, şair Natəvanın Ağdam şəhərində yerləşən qəbirüstü abidəsi dağıdılmışdır.

### Erməni vəhşiliyinin sübutu

Doğma torpaqlarına qayıdan azərbaycanlılar əzizlərinin, valideynlərinin, dostlarının məzarlarını ziyarət etmək istədikdə aydın olub ki, qəbir daşlarının çoxu məhv edilib və ya talanıb. İşğaldan azad edilmiş Cəbrayılın şəhər qəbiristanlığı ermənilər tərəfindən tamamilə barbarlığa məruz qalıb. Bu məzarlıqda bir dənə də olsun salamat qəbir qoymayıblar. Hətta Cəbrayıl qəbiristanlığında insan qalıqları olan açıq çalalara rast gəlinib.

Müharibə dövründə ermənilər evləri, binaları sökərək talançılıq, soyğunçuluq törədiblər. Onu da qeyd edək ki, ermənilərin İkinci Qarabağ müharibəsi zamanı Gəncənin, Tərtərin, Ağdamın, Bərdənin dinc əhalisini güclü artilleriya və raket atəşinə tutması, buradakı yaşayış və inzibati binaları, eləcə də tarixi mədəniyyət abidələrini hədəfə alması təkcə Azərbaycan ictimaiyyətində deyil, bütün dünyada nifrət və ikrah hissilə qarşılanmışdır. Onların bu vandallığı xalqımızın mədəni-tarixi irisnə qarşı soyqırımıdır.

Bu gün qarşımızda duran əsas məsələlərdən biri Ermənistan tərəfindən törədilən transmilli cinayətlərin milli və beynəlxalq səviyyədə hüquqi cəhətdən dəqiq qiymətini alması və ədalətli mühakimə olunmasıdır. Ermənistanın bu əməlləri silahlı münaqişələr zamanı (1954-cü ildə) Ümumdünya mədəni və təbii irsin qorunması haqqında Haaqa Konvensiyasının və 1999-cu ildə bu konvensiyaya əlavə edilmiş ikinci protokolun kobud şəkildə pozulmasıdır.

### Tarixi abidələrə gətirilən yeni nəfəs

Dövlətimiz erməni vandalizminin dünya ictimaiyyətinə çatdırılması istiqamətində tədbirlərini sistemli şəkildə davam etdirir. Prezident İlham Əliyev bütün beynəlxalq platformalarda çıxışları zamanı, xarici KİV-ə müsahibələrində bu barədə ətraflı məlumatlar verir. Eyni zamanda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu istiqamətdə önəmli layihələr həyata keçirir. Dövlət tərəfindən mütəmadi olaraq diplomatik korpusların nümayəndələrinin, xarici KİV-in təmsilçilərinin, müxtəlif sahələr üzrə dünyada tanınmış mütəxəssislərin işğaldan azad olunmuş ərazilərə səfərləri təşkil olunur. Təbii ki, onlar bu səfərlər zamanı erməni vandallığının canlı şahidi olaraq bunu öz ölkələrinin ictimaiyyətinə də çatdırırlar. Bu da Ermənistanın insanlığa qarşı cinayətlərinin beynəlxalq aləmdə ifşa olunmasında vacib amildir.

Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçəlir və işğaldan azad olunmuş ərazilərimizdəki məscidlərdə azan səsləri eşidilir, dualar oxunur. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva 2020-ci il dekabrın 8-də fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan etdi. Mehriban xanımın göstərişi ilə icrasına başlanılan layihəyə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olundular. Hazırda Heydər Əliyev Fondu azad olunmuş ərazilərdə dini abidələrimizin bərpasını həyata keçirir, yeni məscidlər inşa olunur.

İslam Əməkdaşlıq Təşkilatı tərəfindən qəbul edilən qətnamələrdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün siyasi, hüquqi, iqtisadi və humanitar aspektləri ilə bağlı mühüm müddəalar əks olunub. Eyni zamanda Azərbaycan ərazilərində işğal zamanı islam mədəniyyəti və tarixi irsinin nümunələrinin talan edilməsi, dağıdılması, təhqir edilməsi, mədəni irs nümunələrinin saxtalaşdırılması və oğurlanması pislənilir, bu hərəkətlər vandalizmin və barbarlığın təzahürü kimi qiymətləndirilir.

Qəbul edilən qətnamələrdə eyni zamanda Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində dəymiş zərərə görə rəsmi İrəvanın məsuliyyəti təsbit edilir, Azərbaycanın bu xüsusda hüquqi tədbirlərə əl atmaq haqqı vurğulanır.

***E.YƏHYAYEV,***
***"Azərbaycan"***

Ölkəmizin idman uğurları



# İdmançılarımız və hakimlərimiz qalib Azərbaycanı şərəflə təmsil etdilər

## Hicran ŞƏRİFOV: "Prezident İlham Əliyevlə görüş atletlərimizə böyük stimul verdi və qarşıya məsuliyyətli vəzifə qoydu"





Bu günlərdə Türkiyənin Konya şəhərində idmanın birləşdirici gücü ilə həmrəyliyi inkişaf etdirməyi qarşısına məqsəd qoyan V İslam Həmrəyliyi Oyunları başa çatdı. İslam dövlətlərini bir-birinə daha da yaxınlaşdıran, birləşdirən, mehribanlaşdıran həmrəylik oyunları əsl bayrama çevrildi. Azərbaycan bu oyunları 99 medalla bitirib və 56 ölkə arasında 4-cü pillədəki mövqeyini qoruyub. Medallardan 29-u qızıl, 36-sı gümüş, 34-ü bürüncdür.

"Konya-2021"də Azərbaycan nümayəndə heyətinin tərkibində yer alan, güləş yarışlarında etdiyi hakimliklə dünyanın ən məşhur ədalət təmsilçiləri sırasında ilk pillələrdə qərarlaşan "Olimpiya" ordenli, "Qızıl fit" mükafatçısı Hicran Şərifov turnir barədə fikirlərini bizimlə bölüşdü.

*- V İslam Həmrəyliyi Oyunlarında Azərbaycan nümayəndə heyətinin tərkibində yer almışdınız. "Bakı-2017" ilə "Konya-2021"i müqayisə etsək, oxşar və fərqli məqamlar nələr idi?*

İlk öncə qeyd etmək istərdim ki, 5 il bundan əvvəl Bakıda təşkil edilən İslam Həmrəyliyi Oyunlarında Azərbaycan nümayiş etdirdiyi təşkilatçılıq işlərinə görə dünyanın diqqətini üzərinə çəkdi. Möhtəşəm idman bazalarına, bütün əlaqədar təşkilatların birgə səylə nümunəvi fəaliyyətinə heyranlıqlarını gizlədə bilməyən xarici ölkə mütəxəssisləri, milli olimpiya komitələrinin rəhbərləri və üzvləri, ayrı-ayrı beynəlxalq federasiyaların nümayəndələri gələcəkdə öz ölkələrində mötəbər beynəlxalq yarışlar keçirməyə hazırlaşarkən Bakının təcrübəsindən istifadə edəcəklərini söyləyirdilər.

Qardaş ölkə Türkiyənin Konya şəhərindəki sayca V İslamiadada xüsusilə vurğulandı ki, Can Azərbaycanın təcrübəsindən faydalanıblar. Oyunlara hazırlıq prosesində beynəlxalq standartlara uyğun mühüm layihələr icra olunub, infrastruktur dəyişiklikləri edilib, müasir idman mərkəzlərində yarışlara hazırlıq istiqamətində sürətli iş aparılıb. Türkiyədə söhbət etdiyimiz müxtəlif ölkələrin nümayəndələri xüsusilə qeyd edirdilər ki, Azərbaycan həm Avropa Oyunlarına, həm də İslamiadaya evsahibliyi edən dünyanın yeganə ölkəsidir.

Konyada bizə qarşı qardaşlıq, doğmalıq yüksək səviyyədə hiss olunurdu. Çox möhtəşəm "Azərbaycan günü" keçirildi. Azərbaycan idmanının ən yüksək simaları o tədbirdə çıxış etdilər. Çox yüksək səviyyədə təşkil olunan tədbirdə digər ölkələrdən idmançılar da böyük maraqla iştirak edirdilər. Onların Azərbaycan haqqında təəssüratları çox yüksək səviyyədə idi. Çünki Azərbaycan komandası idman tarixində ilk dəfə idi ki, belə beynəlxalq mötəbər turnirdə çox sayda idmançılarla yarışırdı. Açılış mərasimində Konyanın yerli publikası komandamızı elə qarşıladı ki, sanki öz ölkələrinin nümayəndələri idik. İslamiadanın açılış mərasimində qalib Azərbaycan adını duymaq, zəfər çalan ölkənin böyük tarixi qələbə qazanmış xalqını təmsil etmək həm böyük qürur, həm də böyük məsuliyyət idi.

*- İslamiadada güləş yarışlarında hakimlik etdiniz. Ümumi idarəçilik nə kimi hadisələrlə yadda qaldı?*

Güləş yarışları çox yüksək səviyyədə keçirildi, güclü idmançılar çıxış etdilər. Əksər hallarda döşək rəhbəri olurdum. Elə güləşlər olurdu ki, Dünya Güləş Federasiyası rəhbərliyi xüsusilə deyirdi ki, bu döyüşü siz idarə etməlisiniz. Çünki elə qarşılaşmaların şahidi olurduq ki, həlledici məqamlar daha çox ön planda yer alırdı. Ona görə də belə görüşlər daha təcrübəli hakimlərə həvalə edilirdi.

Çox şadam ki, dünya güləş hakimliyində tutduğumuz mövqeyə görə bu yarışlar mənə tapşırıldı. Həddindən artıq maraqlı görüşlərin şahidi olduq. Amma ən yaddaqalan görüş 3-cü yer uğrunda 63 kq çəki dərəcəsində yunan-Roma güləşində qeydə alındı. Belə ki, Özbəkistan və Tacikistan güləşçiləri qarşılaşırdılar. Özbək güləşçisi hesabda 0:6 geridə idi. O, bilərəkdən tacik güləşçinin barmağını sındırdı. Belə olan halda özbəkistanlı güləşçi zənn edirdi ki, ona texniki qələbə veriləcək. Mən isə hakimi və yan hakimi çağıraraq yarışların keçirilməsi qanununa uyğun olaraq ən sərt cərimə - yarışlardan kənarlaşdırma qərarının qəbul edilməsinin vacibliyini vurğuladım. Bilərəkdən kobudluğa görə, özbəkistanlı güləşçi döşəkdən kənarlaşdırıldı.

*- Güləşçilərimiz qardaş ölkədə növbəti dəfə tarix yazdılar. Qazanılan 23 medalı necə qiymətləndirərdiniz?*

Güləşçilərimiz son 3 İslamiadada ardıcıl olaraq 23 medal qazanıblar. "Konya-2021"də 28 güləşçi ilə yarışan komandamız 23 medal əldə etdi. Pəhləvanlarımızın nailiyyəti bir daha göstərdi ki, bu qələbələr təsadüfi xarakter daşımır. Ümumiyyətlə, güləşçilərimizin ölkə idmanına verdiyi töhfələr danılmazdır. Birmənalı həqiqətdir ki, güləş ölkəmizdə ən populyar idman növlərindən biri olmaqla yanaşı, kütləvilik baxımından da ön sıralarda dayanır. Tarixi kökü olan bu idman növü Azərbaycanda heç vaxt ənənəsini itirməyib. Azərbaycan güləş məktəbinin yetirmələri olan gənc olimpiya, dünya, Avropa çempionları iştirak etdikləri bütün yarışlarda rəqibləri üçün ən ciddi idmançılar sayılırlar. Yəni pəhləvanlarımız iştirak etdikləri istənilən turnirin favoritidirlər.

Azərbaycan Güləş Federasiyasında rəhbər dəyişikliyi nəticəsində struktur, məşqçi və yığma komandaların yenidən təşkili sürətlə gedir. Federasiya daxilində, məşqçilər korpusunda hər kəs öz vəzifəsini, məsuliyyətini dəqiq bilir, buna uyğun da fəaliyyət göstərməyə çalışır. Artıq bu, öz nəticələrini beynəlxalq yarışlarda göstərməyə başlayıb.

Unutmamalıyıq ki, qazanılan uğurların fonunda arxayınçılıq əsla olmamalıdır. İdmançılarımız daha məsuliyyətlə işlərinə davam etməli, inkişafın miqyasını artırmalıdırlar. Son illər güləş idman növündə həm problemlərlə üzləşmişdik, həm də lazımsız arxayınçılıq yaranmışdı. Bunun nəticəsini Tokio Olimpiadasında pəhləvanlarımızın medal göstəricilərində aydın gördük. Rio Olimpiadasında ölkəmizin aktivinə 9 medal yazdıran güləşçilərimiz Yaponiyada 3 mükafatla kifayətləndilər.

Güləşçilərimiz də beynəlxalq yarışlarda qalib gəlmiş müzəffər xalqı təmsil edirlər. Konyada iştirak edən, mübarizə aparan güləşçilərin ürəyində də bu duyğular var idi. Bir sözlə, Konyadan böyük qələbə ilə qayıdan güləşçilərimiz ölkənin idman tarixinə növbəti şanlı səhifə yazdılar. Qarşıda pəhləvanlarımızı bir-birindən mötəbər yarışlar gözləyir. Bu turnirlərin ən böyüyü isə sözsüz ki, Fransanın paytaxtı Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarıdır. İnanıram ki, güləşçilərimiz bu mötəbər tədbirdə də uğurlu çıxışları ilə xalqımızı sevindirəcəklər.

*- Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva V İslam Həmrəyliyi Oyunlarında nəticə əldə etmiş idmançılarla görüşdü. Bu tədbirdə siz də iştirak edirdiniz. Bu görüşdən hansı təəssüratla ayrıldınız?*

Hakim kimi qatıldığım beynəlxalq turnirlərdə Azərbaycanın daim yüksəlişdə olan nüfuzunu artırmaq üçün hər bir qərarımda ədalətli və diqqətli olmuşam. Olimpiya kateqoriyalı, beynəlxalq dərəcəli güləş hakimi kimi çalışmışam ki, üzərimə düşən vəzifənin öhdəsindən layiqincə gəlib, Azərbaycanın adını uca tutum. Çünki bu həm də möhtərəm İlham Əliyevin qarşısında bir vətəndaş öhdəliyimdir.

Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın idmançılarla görüşü növbəti dəfə bizə olan etimadın təzahürü idi. Prezident İlham Əliyev bizləri gələcək yarışlara ruhlandırdı və qarşımıza məsuliyyətli vəzifə qoydu. Qürurla deyə bilərəm ki, Preizdent İlham Əliyevin Konyaya gələrək yarışlardan öncə idmançılarımıza mənəvi dəstək verməsi, onların mübarizəsinə həyəcanla azarkeşlik etməsi, Bakıya qayıtdıqdan sonra qaliblərin əlini sıxıb təbrik etməsi, məğlub olanlara isə təskinlik verməsi sanki bir atalıq qayğısını təcəssüm etdirir. Bu görüş idmançılarımıza növbəti yarışlarda daha yüksək nəticələrin əldə edilməsi üçün mənəvi stimul verdi.

Ümumiyyətlə, söylənilən bütün faktlara, fikirlərə əsasən əminliklə demək olar ki, qazandığımız uğurlar Azərbaycanda idmanın inkişafı, idmançılara, onları yetişdirən məşqçilərə, hakimlərə dövlətimizin göstərdiyi yüksək diqqət və qayğının nəticəsidir. Bu dəstəyi hər zaman hiss edən idmançılarımız, məşqçilərimiz və hakimlərimiz beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edir, dövlətimizə başucalığı gətirmək üçün əllərindən gələni əsirgəmirlər.

Cənab Prezidentin söylədiyi kimi, məhz vətənpərvərlik, Vətənə olan sədaqət, fədakarlıq gənc nəsli Qarabağın azad olunması uğrunda müharibədə irəliyə apardı. Ona görə də gənc nəsil mütləq vətənpərvərlik, milli ruhda tərbiyə almalıdır. Azərbaycan dövləti buna nail olmaq üçün bütün imkanlardan istifadə edir. Vətənpərvərliyi gücləndirən amillərdən biri də tarixi-hərbi zəferimiz və eyni zamanda idman uğurlarımızdır.

***Müsahibəni apardı:***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



# Xalqımızın bizə bəslədiyi etimadı doğrultduq







Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər ölkəmizin beynəlxalq idman təşkilatlarında mövqeyinin xeyli güclənməsinə səbəb olub və Azərbaycanı dünyaya əsl idman ölkəsi kimi tanıdıb. İdmançılarımızın ən mötəbər beynəlxalq yarış və turnirlərdə əldə etdikləri yüksək nəticələr, Azərbaycanın davamlı olaraq yüksək səviyyədə evsahibliyi etdiyi nüfuzlu idman tədbirləri ölkəmizə bu statusu qazandırıb.

Maraqla izlənən V İslam Həmrəyliyi Oyunlarında da bu, bir daha təsdiqini tapdı. İdmançılarımız V İslam Həmrəyliyi Oyunlarında onlara göstərilən etimadı doğruldaraq yarışlarda 99 medal qazanaraq 4-cü pillədə qərarlaşdı. Yarışlarda Azərbaycan idmançıları 29 qızıl, 36 gümüş və 34 bürünc əyarlı medallara sahib çıxdılar. İlk 3 sırada medal əyarına müvafiq olaraq Türkiyə, Özbəkistan və İran qərarlaşıb. Sonrakı yerləri Azərbaycan və Qazaxıstan tamamlayıb.

### "Uğurlarımızın ardı gələcək"

Sözsüz ki, bu qələbələr gənclərimizdə qürur hissi yaratmaqla yanaşı, onları sonrakı yarışlara da ruhlandırır. Yunan-Roma güləşi üzrə qızıl medal qazanan Eldəniz Əzizli deyir ki, dövlət başçısının Konyada idmançılarla görüşü onlara yüksək stimul verdi: "Yarışlara güclü idmançılar qatılmışdılar. Güləş yarışında iştirak edənlər yüksək nəticələr göstərmiş ölkələrin idmançıları idi. Cənab Prezidentlə görüşdə fürsətdən istifadə edib, ona minnətdarlığımızı bildirdik. Cənab Prezidentin idmana göstərdiyi diqqət və qayğı hər kəsə məlumdur. Biz oyunöncəsi və qələbəsonrası dövlətimizin başçısı ilə görüşən zaman böyük qürur hissi keçiririk. Dövlətimizin başçısı Konyada "Atletlər şəhəri"nə gələrək biz idmançılarla görüşdü və öz tövsiyələrini verdi. Bu idmançılar üçün böyük bir stimul oldu. Nəticə isə göz qabağındadır. Güləşçilərimiz komanda hesabında V İslam Həmrəyliyi Oyunlarında medallarının sayına görə birinci yerə çıxdı. Ölkələr üzrə isə medallarının sayına görə 4-cü yerdə oldu. Bakıya qayıtdıqdan sonra cənab Prezidentlə yenidən görüşümüz oldu. Dövlət başçısı güləşin Azərbaycan idmanının flaqmanı olduğunu vurğuladı. Güləşçilərimiz digər idman növlərindən fərqli olaraq, yenə də öz sözlərini dedilər. Qazanılan 99 medalın 23-ü güləşə aiddir. Ən çox qazanılan 8 qızıl da güləş idman növünə aiddir. İnanıram ki, uğurlarımızın ardı gələcək".

### "Zədəli olsam da, azarkeşlərin dəstəyi məni qələbəyə ruhlandırdı"

Azərbaycan cüdoçusu Balabəy Ağayev də V İslam Həmrəyliyi Oyunlarında ölkəmizi layiqincə təmsil edən idmaçılarımızdandır. Final görüşündə ayağından zədələnməsinə baxmayaraq, əsl əzmkarlıq göstərən cüdoçumuz rəqibini məğlub edərək qızıl medal qazanıb. Balabəy Ağayev bildirir ki, dövlətimiz həmişə idmançılara dəstək olub: "Qardaş ölkə Türkiyədə bizi çox gözəl qarşıladılar. Biz tatamiyə öz ölkəmizdə yarışan kimi çıxırdıq. Azarkeş dəstəyi yüksək idi və bu, bizə çox kömək oldu. Özümlə bağlı bir məqamı xüsusi qeyd etmək istəyirəm. Final görüşündə ayağım zədələndi, amma buna baxmayaraq, azarkeşlərin coşqusu məni elə ruhlandırdı ki, yenidən özümü toparlayıb, tatamiyə qayıtdım. Zədəli olsam da, azarkeşlərin dəstəyi məni qələbəyə ruhlandırdı. Çətinliklə də olsa qalib gəlib ölkəmizin Dövlət himnini səsləndirdim. Mənə dəstək olan hər kəsə öz təşəkkürümü bildirirəm. Prezident İlham Əliyev hər zaman idmana və idmançılara xüsusi qayğı ilə yanaşıb. Dövlət başçısının Konyada yarışdan əvvəl bizimlə görüşməyi idmançılarda əvəzolunmaz ruh yüksəkliyi yaratdı. Ölkəyə qayıtdıqdan sonra Prezident və birinci xanımla görüşdük. Bu, çox qürurverici görüş idi. Bizi çox gözəl qarşıladılar. İdmanda və həyatda bizə uğurlar arzu etdilər. Sevinirəm ki, 99 medal ilə Vətənə dönərək xalqımızın bizə bəslədiyi inamı doğrultduq".

Bütün bu uğurlar Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş idmana, gənclərimizin sağlamlığına yüksək diqqət və qayğının Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi sayəsində əldə olunub. Bu sahədə həyata keçirilən ardıcıl tədbirlər, ölkəmizdə ən yüksək standartlara cavab verən idman infrastrukturunun yaradılması qarşıdakı illərdə daha yüksək nailiyyətlərin qazanılacağına güclü zəmin formalaşdırır. Bütünlükdə ölkə rəhbərliyinin diqqət və qayğısı ilə həyata keçirilən tədbirlər deməyə əsas verir ki, dünyada idman ölkəsi kimi tanınan Azərbaycanı bu sahədə daha böyük nailiyyətlər gözləyir.

***Elşən YƏHYAYEV,***
***"Azərbaycan"***

# Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev "Azercell" ilə görüş keçirib




Avqust ayının 22-si Rəşad Nəbiyev "Azercell Telekom" MMC-nin prezidenti və rəhbər heyəti ilə görüş keçirdi. R. Nəbiyev "Azercell"in strateji təşəbbüsləri və gələcək planları barədə cari status hesabatlarını dinlədi.

Nazir xüsusilə abunəçilərin dinamik şəkildə artan ehtiyaclarını qarşılamaq üçün ölkə üzrə "Azercell" şəbəkəsinin genişləndirilməsi və modernizasiyası kimi irimiqyaslı layihənin icrasına dair hesabatla tanış oldu. Bu layihə 4G şəbəkəsinin tutumunun Bakı və Abşeron yarımadasında 80 faiz, rayonlarda isə 75 faiz genişləndirilməsini təmin edəcək. Həmçinin nazirə şəbəkənin genişləndirilməsi layihəsi üzrə işğaldan azad edilmiş ərazilərdə 80-dən çox yeni 4G baza stansiyasının qurulması və şirkətin satış və xidmət mərkəzlərinin istismara verilməsi haqqında məlumat verildi.

Nazir telekommunikasiya sənayesinin ən son trendlərinə uyğun olaraq "Azercell"in təqdim etdiyi məhsul və rəqəmsal həllər barədə də məlumatlandırıldı. Belə layihələrə özündə həm maliyyə, həm də mobil rabitə imkanlarını birləşdirərək abunəçilərə rəqəmsal ödənişlər həyata keçirməyə imkan verən fintek həlli aiddir.

Şirkətin perspektiv planlarına gəlincə, nazirə əminliklə bildirildi ki, "Azercell" öz infrastrukturunun genişləndirilməsi və modernizasiyasına yatırım etmək, həm də abunəçiləri üçün innovativ rəqəmsal həllər təqdim etmək istiqamətində təşəbbüslərini davam etdirəcək.

Nazir "Azercell" komandasına şirkətin həyata keçirdiyi uğurlu layihələrə görə təşəkkür etdi və gələcək təşəbbüslərin həyata keçirilməsində müvəffəqiyyətlər arzuladı.


Azercell

## abunəçilərinin nəzərinə!

24.09.2022-ci il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturasız (SimSim) xətt sistemində abunəçilərə təqdim edilən "Veteran" kampaniyasına yeni qoşulmalar dayandırılacaq. Həmin kampaniyaya göstərilən tarixədək qoşulan abunəçilər kampaniyadan imtina etmədikləri təqdirdə istifadəyə davam edə biləcəklər. Nəzərinizə çatdırırıq ki, "Azercell Telekom" MMC-nin fakturasız (SimSim) xətt sisteminə aid nömrələrin abunəçiləri "Veteran" tarif paketinə qoşula bilərlər.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, "Veteran" kampaniyası və "Veteran" tarif paketinin şərtləri barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən **(www.azercell.com<http://www.azercell.com/>)**, həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.



## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 26.08.2022-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


## MƏLUMAT

Müasir həyatımızın informasiya texnologiyaları ilə çox sıx əlaqədə olduğunu və görmə əlilliyi olan şəxslər üçün səsli proqramların mühümlüyünü nəzərə alaraq, xüsusi kompüter proqramlarının milli versiyalarının yaradılması çox vacibdir. Belə ki, Azərbaycan Gözdən Əlillər Cəmiyyəti İctimai Birliyindən aldığımız məlumata əsasən, ölkədə 45 000-dən çox görmə əlilliyi olan şəxs yaşayır və onlardan 70-80 faizi səsli proqramlar vasitəsi ilə aktiv mobil telefon və ya kompüter istifadəçisidir. Görmə əlilliyi olan şəxslərin istifadə etdikləri hər bir mobil telefon və kompüter texnologiyalarının səslə idarə edilməsi üçün istifadə edilən JAWS səsli proqramının əksər dünya dillərinə inteqrasiya edilməsinə baxmayaraq, bu günədək Azərbaycan versiyası yaradılmamışdır. Görmə əlilliyi olan şəxslər (azərbaycanlılar) mobil telefon və kompüter texnologiyalarını türk, rus, ingilis və digər dillərdə olan proqram vasitəsi ilə istifadə edirlər. Bu problemin aradan qaldırılması üçün "JAWS səsli proqramının Azərbaycan versiyasının hazırlanması" layihəsinin həyata keçirilməsini təklif edirik.

*Sosial Xidmətlər Agentliyi*











# OXUCULARIN NƏZƏRİNƏ!

***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının Biləsuvar Regional Mərkəzinin inzibati binası üçün 1 ədəd 40 kVA UPS avadanlığının təchizatı və quraşdırılması işlərinin satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 17 avqust 2022-ci il tarixli qərarına əsasən, "DATA TECHNOLOGİES" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan polad tikişsiz boruların və dirsəklərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 3 sentyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Afrikada uşaqlar quraqlıq ucbatından ölüm qarşısındadırlar



Efiopiya, Keniya və Somalidə quraqlıqdan əziyyət çəkən və içməli suyu təhlükəsiz əldə etmək imkanı olmayan insanların sayı cəmi 5 ay ərzində 9,5 milyondan 16,2 milyon nəfərə çatıb.

Bu barədə BMT-nin Uşaq Fondunun (UNICEF) son hesabatında deyilir. Afrika Buynuzu və Sahel bölgələrində yaşayan uşaqlar qitəni çənginə alan quraqlıq səbəbindən ölüm təhlükəsi qarşısındadırlar. Fondda qeyd edirlər ki, bu təhlükə miqyasına görə doyunca yeməmək və xəstəliklər riskini artıq geridə qoyur.

UNICEF-in icraçı direktoru Ketrin Rasselin sözlərinə görə, Burkina-Faso, Çad, Mali, Niger və Nigeriyada quraqlıq, münaqişələr və təhlükəsizliyin olmaması su çatışmazlığı ilə nəticələnir, bununla yanaşı, 40 milyon uşaq yüksək və fövqəladə yüksək su qıtlığı ilə qarşılaşır. Uşaqlar arasında kəskin aclıq vəba və diareya kimi təhlükəli xəstəliklərin yayılması ilə müşayiət olunur ki, bu da nəticədə uşaq ölümünün dəhşətli artımına səbəb olur.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) son məlumatına görə, dünyanın digər yerləri ilə müqayisədə Sahel bölgəsində çirklənmiş su və antisanitariya səbəbindən daha çox uşaq ölür.

UNICEF hesab edir ki, Afrika Buynuzu bölgəsində insanların əksəriyyəti satıcıların yük maşınlarında və eşşək arabalarında gətirdikləri sudan asılıdır, lakin quraqlıqdan daha çox əziyyət çəkən ərazilərdəki ailələrin çoxunun su almağa imkanı çatmır.

Keniya, Efiopiya və Somalidə suyun qiyməti 2021-ci ilin yanvarı ilə müqayisədə 55-85 faiz artıb.

2021-ci ilin iyunundan 2022-ci ilin iyununadək olan dövrdə UNICEF və onun tərəfdaşları Efiopiyanın regionlarında 5 yaşınadək 1,2 milyondan artıq uşağı diareyadan sağaldıblar. Bu ərazilərdə içməli su çatışmazlığı ən ümdə məsələdir.

UNICEF bütün bu səbəblərə görə hökumətləri, donor ölkələri və beynəlxalq birliyi uşaqların ən vacib ehtiyaclarının təmin edilməsi üçün maliyyələşdirməni artırmağa və çıxılmaz böhran dairəsini parçalamaqdan ötrü uzunmüddətli və çevik dəstək təqdim etməyə çağırıb.

## Donald Trampda geri qaytarmalı olduğu 300 məxfi sənəd aşkarlanıb

ABŞ-ın hakimiyyət orqanları sabiq prezident Donald Trampda, o cümlədən onun Floridadakı iqamətgahında 300-ə yaxın məxfi sənəd aşkarlayıblar.

Bu barədə "New York Times" nəşri hakimiyyətdəki mənbələrə istinadla məlumat yayıb.

"Hökumət Donald Trampda ümumilikdə 300-dən çox "məxfi" qrifli sənəd tapıb. Sənədlərin ilk partiyası yanvarda aşkarlanıb, daha bir hissəsi iyun ayında Trampın köməkçiləri tərəfindən Ədliyyə Nazirliyinə təqdim olunub, bu ay isə FTB bir sıra materiallar götürüb", - deyə qəzet yazır.

Mənbələr dəqiqləşdirir ki, Milli arxivlər və sənədləşdirmə idarəsi sabiq prezidentdən məxfi informasiyalı 150 sənəd götürmüşdü. Bu miqdar Ədliyyə Nazirliyində ciddi narahatlıq doğurub, avqustda cinayət təhqiqatına başlamasına və FTB tərəfindən Donald Trampın Floridada yerləşən Mar-a-Laqo iqamətgahında axtarış aparılmasına əsas verib. Axtarış nəticəsində 26 qutuda "məxfi" işarəli 11 komplekt material tapılıb.

Qəzet bildirir ki, ABŞ Ədliyyə Nazirliyi təhqiqatı davam etdirir. Bu, məmurların Trampın Ağ evdən götürdüyü heç də bütün prezident sənədlərinin bərpasına əmin olmadığını göstərir.

## Serbiyanın bəzi ölkələrdəki səfirliklərinin tviter hesabları bloklanıb

Serbiyanın 7 səfirliyi və konsulluğunun tviter hesablarının bloklandığı açıqlanıb. Bu barədə Serbiya Xarici İşlər Nazirliyi məlumat yayıb.

Nazirliyin məlumatına görə, tviter avqustun 18-də Serbiyanın Qana, İran, İndoneziya, Küveyt, Nigeriya, Zimbabve və Ermənistandakı səfirliklərinin, eləcə də Çikaqo konsulluğunun hesablarını bloklayıb. Əməliyyatın heç bir izahat və sosial media qayda pozuntusu olmadan həyata keçirildiyi bildirilib.

Hər hansı səbəb göstərilmədən hesabların bloklandığı qeyd edilən açıqlamada vurğulanıb: "Heç bir sanksiyaya məruz qalmayan demokratik bir ölkənin diplomatik nümayəndəliklərinə məxsus hesabların bloklanması qəbuledilməzdir".

Söz azadlığını vurğulayan rəsmi Belqrad tviterdən bu hesabların blokdan çıxarılmasını istəyib.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6366
Sifariş 2345
Qiyməti 40 qəpik